

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 27 (921) ■ 25 iyul 2018

www.vergiler.az

Qiyməti: 60 qəp.

# Azərbaycan Prezidentinin Fransa Respublikasına səfəri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makronun dəvəti ilə Fransaya səfər edib. İyulun 20-də Parisdə, Yelisey Sarayında Fransa Respublikasının Prezidenti Emmanuel Makronun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib. Yelisey Sarayına gələn dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fransa Prezidenti Emmanuel Makron dövlətimizin başçısını qarşılayıb.**



Müzakirələr zamanı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, ekologiya, nəqliyyat, təhlükəsizlik, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib, Azərbaycanda Fransız Liseyinin və Azərbaycan-Fransız Universitetinin fəaliyyət göstərməsindən məmnunluq ifadə olunub. Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələri ətrafında fikir mübadiləsi aparılıb. Vurğulanıb ki, Fransanın aparıcı şirkətləri Azərbaycanda fəaliyyətlərini daha da genişləndirməkdə maraqlıdır. Dövlətimizin başçısı səfər çərçivəsində Fransanın 11 şirkətinin nümayəndələri ilə səmərəli görüşlərin aparıldığını qeyd edib, bu görüşlərin ölkələrimiz arasında iqtisadi əməkdaşlıq üçün böyük perspektivlərə yol açdığını vurğulayıb. Prezident İlham Əliyev deyib ki, Azərbaycan ilə Fransa şirkətləri arasında 2 milyard dollardan çox dəyərində müqavilələr imzalanıb. Bu müqavilələr reallaşdırıldığı təqdirdə onların həcmi daha da artacaq.

Görüşdə, həmçinin, enerji təhlükəsizliyi məsələsi müzakirə olunub, «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla icra edildiyi vurğulanıb. Neft-qaz sektoru, infrastruktur, nəqliyyat, kosmik sənaye, hava nəqliyyatı, metro tikintisi, hərbi-texniki sahələrdə əməkdaşlıq məsələləri də müzakirə olunub. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunulub. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi barədə ətraflı məlumat verib. Ümidvarlıq ifadə olunub ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın Prezidenti şəxsən bu münaqişənin həllində fəal iştirak edəcək.

Daha sonra sənədlərin imzalanması və mübadiləsi mərasimi keçirilib. «Azərsu» Açıq Səhmdar Cəmiyyəti və «SUEZ Group» arasında operativ təlim, know-how transfer və texniki yardım üzrə 2014-cü il tarixli Xidməti Müqaviləyə 2 nömrəli Əlavə, «Azərsu» ASC və «SUEZ Group» arasında Sumqayıt şəhərində suyun və su itkisinin idarə olunmasına dair Niyyət Sazişi, «Azərkosmos» Açıq Səhmdar Cəmiyyəti ilə Fransa Respublikasının Milli Kosmik Tədqiqatlar Mərkəzi arasında kosmos sahəsində əməkdaşlıq fəaliyyətinə dair Çərçivə Sazişi imzalanıb.

Sonra «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti və «Thales» şirkəti arasında mülki aviasiya sahəsində sənaye əməkdaşlığı haqqında Anlaşma Memorandumu, «Azərbaycan Hava Yolları» QSC və «Modern Construction Group», «Thales» şirkəti arasında Heydər Əliyev Beynəlxalq Aeroportu üçün radiolakasiya sisteminin quraşdırılması müqaviləsi, «Azərbaycan Hava Yolları» QSC və «Thales» şirkəti arasında «Azərbaycan Hava Yolları» QSC-nin kibertəhlükəsizliyi üçün tam təhlilin hazırlanması müqaviləsi, «Azərbaycan Hava Yolları» QSC və «Thales» şirkəti arasında «Azeraeronaviqasiya» Hava Hərəkəti İdarəsində kibertəhlükəsizliyin təmini üçün tam təhlilin hazırlanması müqaviləsi və «Azərbaycan Hava Yolları» QSC ilə «Thales» şirkəti arasında uçuş heyətləri üçün inteqrasiya edilmiş brifinq sisteminin yaradılması üzrə Niyyət Məktubu imzalanıb.

---

Prezident İlham Əliyev Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə də görüşüb. Senatın binasının qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Azərbaycan Prezidentini Senatın sədri Jerar Larşe qarşılayıb.

Prezident İlham Əliyevi Fransa Senatında yenidən görməkdən məmnun olduğunu deyən Jerar Larşe bu cür səfərlərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətini qeyd edib. Fransa ilə Azərbaycan arasında iqtisadi, siyasi, təhsil, mədəniyyət sahələrində qarşılıqlı əməkdaşlıqdan danışan Senatın sədri, həmçinin, Bakıda Fransız Liseyinin, Azərbaycan-Fransız Universitetinin fəaliyyət göstərdiyini xüsusi qeyd edərək bildirib ki, bu, ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir.

Fransa Senatına növbəti dəfə gəlməkdən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev qeyd edib ki, bu gün Fransa ilə bütün səviyyələrdə aparılan dialoq Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan Fransanı özünə çox yaxın tərəfdaş, dost ölkə hesab edir və əməkdaşlığın daha da genişləndirilməsində maraqlıdır. Vurğulanıb ki, Fransa ilə Azərbaycan arasında mövcud münasibətlər, burada aparılan müzakirələr Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanacaq Sazişə öz müsbət töhfəsini verəcək. Senatın sədri Avropa İttifaqı ilə Azərbaycan arasında hərtərəfli Sazişin yaxın zamanlarda imzalanacağına ümidvar olduğunu deyib, vurğulayıb ki, Fransa bu sənədin imzalanmasında çox maraqlıdır.

Söhbət zamanı parlamentlərarası əlaqələrin çox yüksək səviyyədə olduğu qeyd edilib, bu əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb. Fransa Senatında Fransa-Qafqaz Dostluq Qrupu çərçivəsində bir çox görüşlərin, qarşılıqlı səfərlərin keçirildiyi diqqətə çatdırılıb. Görüşdə, həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi müzakirə olunub. Senatın sədri vurğulayıb ki, Fransa bu münaqişənin sülh yolu ilə həll olunması istiqamətində fəaliyyətini davam etdirmək niyyətindədir.

Sonra Prezident İlham Əliyev Senatın «Qızıl kitab»ını imzalayıb.

---

İyulun 20-də Parisdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Milli Assambleyasının sədri Fransua de Rüji ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub, bu səfərin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Azərbaycan ilə Fransanın 15 şəhərinin qardaşlaşdığını qeyd edən dövlətimizin başçısı vurğulayıb ki, bu, ölkələrimiz arasında münasibətlərin səviyyəsini göstərir və regionlar arasındakı təmasların inkişaf etməsinə imkanlar açır. Söhbət zamanı ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni sahələrdə münasibətlərin inkişafı, bu sahələrdə gələcək layihələrin reallaşdırılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycanın Fransada daha geniş tanıdılması istiqamətində işlərin genişləndirilməsinin zəruriliyi vurğulanıb.

## Prezidentin Paris görüşləri

■ Prezident İlham Əliyev Fransaya səfəri çərçivəsində Parisdə Fransa Beynəlxalq Əlaqələr İnstitutunun icraçı sədri Tyerri de Montbrial ilə görüşüb. Tyerri de Montbrial ümummilli lider Heydər Əliyev ilə Fransada və Azərbaycanda, Prezident İlham Əliyevlə Fransada keçirilən görüşləri məmnunluqla xatırlayıb. Söhbət zamanı Fransa-Azərbaycan ikitərəfli münasibətləri, beynəlxalq və regional məsələlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında fikir mübadiləsi aparılıb.

■ Dövlətimizin başçısı iyulun 19-da «Naval» qrupunun sədri və baş direktoru Erve Giyu ilə görüşüb. Görüşdə Azərbaycan ilə Fransa arasında hərbi sənaye sahəsində əməkdaşlıq haqqında müzakirələr aparılıb. Erve Giyu rəhbərlik etdiyi şirkətin fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verib. Söhbət zamanı qeyd olunub ki, Azərbaycan ilə Fransa arasında hərbi-texniki sahədə əməkdaşlığın həyata keçirilməsi üçün yaxşı imkanlar var və hazırda Fransa tərəfi ilə konkret layihələr üzərində iş gedir.

■ Prezident İlham Əliyev «Total» şirkətinin sədri və baş icraçı direktoru Patrik Puyane ilə də görüşüb. Söhbət zamanı «Abşeron» qaz-kondensat yatağının işlənilməsi və inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Xəzərin Azərbaycan sektorundakı «Ümid-Babək» təbii qaz yataqlarının işlənilməsində «Total» şirkətinin iştirak etməsi imkanları müzakirə olunub.

■ Dövlətimizin başçısının «Airbus» şirkətinin Avrasiya üzrə vitse-prezidenti Silver Delonay ilə görüşündə əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb, «Azərsky» və «Spot 6» peyklərinin dünya bazarlarında uğurlu fəaliyyətindən məmnunluq ifadə olunub. Azərbaycanın gələcəkdə «Airbus» şirkətindən daha yüksək ayırdetmə peyklərini alması və peyklərlə bağlı texnologiyalar ətrafında müzakirələr aparılıb.

■ Prezident İlham Əliyevin Fransanın «SUEZ» qrupunun baş icraçı direktoru Jan Lui Şassod ilə görüşündə bu şirkətin Bakı və Sumqayıt şəhərlərində içməli suyun təmizlənməsi üzrə bir neçə layihədə iştirakından danışılıb. Azərbaycanın əhalisinin artdığını qeyd edən dövlətimizin başçısı həmin layihələrin vacibliyinə toxunub, strateji əhəmiyyətini qeyd edib. Söhbət zamanı bu sahədə mövcud təkliflər nəzərdən keçirilib, gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

■ Dövlətimizin başçısı «Wilmotte & Associes Architectes» şirkətinin icraçı direktoru xanım Borina Andriye ilə də görüşüb. Bakının gözəlliyinin onda dərin təəssürat yaratdığını vurğulayan B.Andriye şəhərin infrastrukturunun təkmilləşdirilməsini, yeni binaların, parkların tikilməsini yüksək qiymətləndirib. Söhbət zamanı paytaxtımızın inkişaf konsepsiyasının həyata keçirilməsində bu şirkətin iştirakının mümkünlüyü barədə fikir mübadiləsi aparılıb.

■ Prezident İlham Əliyevin «Thales International» şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi ilə görüşündə «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə «Thales İnternational» şirkəti arasında imzalanan sənədlərin əhəmiyyəti qeyd olunub, qarşılıqlı əməkdaşlığın hər iki tərəf üçün maraq doğurduğu bildirilib. Söhbət zamanı Azərbaycan ilə şirkət arasında uzun illərdir uğurlu əməkdaşlıq edildiyi, müxtəlif layihələrin həyata keçirilməsi ilə bağlı çox yaxşı nəticələrin əldə olunduğu məmnunluqla vurğulanıb.

■ «IVECO France» şirkətinin prezidenti, «IVECO Global Bus»un rəhbəri Silvan Blez ilə görüşən Prezident İlham Əliyev şirkətin ekoloji baxımdan təmiz avtobuslarının Bakıda uğurla fəaliyyət göstərdiyini məmnunluqla qeyd edib, bu avtobusların şəhərimizin nəqliyyat infrastrukturunun inkişafında oynadığı rolu xüsusi vurğulayıb. Bakının nəqliyyat infrastrukturu sahəsində regionun aparıcı şəhəri olduğunu vurğulayan Silvan Blez rəhbərlik etdiyi şirkətin paytaxtımızın ictimai nəqliyyat infrastrukturunun müasirləşdirilməsində, digər texnikalarının kənd təsərrüfatı sahəsində aparıcı rol oynadığına ümid etdiyini bildirib.

■ Prezident İlham Əliyev «Bouygues Travaux Publics» şirkətinin baş icraçı katibinin müavini Mark Adler ilə də görüşüb. Söhbət zamanı Fransanın Azərbaycanda fəaliyyət göstərən ən böyük şirkətlərindən biri olan bu qurumun ölkəmizdə nəqliyyat, inşaat, metro tikintisi sahələrində işləməkdə maraqlı olduğu bildirilib. Prezident İlham Əliyev bunu yüksək qiymətləndirib və əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminliyini ifadə edib.

■ Fransanın SADE şirkətinin prezidenti Patrik Lölo ilə görüşdə bu şirkətin Azərbaycanda «Ağıllı Şəhər» layihəsində və meliorasiya sahəsində fəaliyyətindən məmnunluq ifadə olunub. Patrik Lölo bildirib ki, SADE Azərbaycanda fəaliyyətini bundan sonra da davam etdirmək niyyətindədir. Prezident İlham Əliyev şirkətin fəaliyyətinin ölkəmizdə dəstəkləndiyini qeyd edib, vurğulayıb ki, meliorasiya sahəsi Azərbaycan üçün prioritet istiqamətlərdəndir.

# İtaliya Prezidenti Sercio Mattarella Azərbaycanda rəsmi səfərdə olub

**İyulun 18-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella Azərbaycan Respublikasına rəsmi səfər edib. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevlə İtaliya Prezidenti Sercio Mattarella arasında təkbətək görüş olub.**

Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulanan görüşdə bu səfərin əlaqələrimizin daha da genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşdən sonra sənədlərin imzalanması mərasimi keçirilib və dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər. Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, ölkələrimiz arasında əlaqələr çoxşaxəlidir və bu, bir çox sahələri əhatə edir: «İtaliya hazırda ATƏT-in sədridir. Biz ümid edirik və əminik ki, İtaliya ATƏT-in sədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində fəal rol oynayacaqdır. Biz istəyirik ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə öz həllini tapsın».

Dövlətimizin başçısı bildirib Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında İtaliyanın müsbət rolu və mövqeyi var: «Ümid edirəm ki, yaxın gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş imzalanacaq. Saziş üzərində iş aparılır və biz Avropa İttifaqına üzv ölkələrlə strateji tərəfdaşlıq bəyannamələri imzaladıq, qəbul etdik. Doqquz ölkə ilə, o cümlədən İtaliya ilə belə bəyannamələr qəbul edildi. 2014-cü ildə İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə qəbul edilmişdir. Bu, çox ciddi siyasi sənəddir, əslində, bizim bir-birimizə olan münasibəti və gələcək əməkdaşlıq formatını göstərir və müəyyən edir».

Prezident İlham Əliyev İtaliyanın ölkəmiz üçün əsas ticarət tərəfdaşı olduğunu, Azərbaycan neftinin İtaliya istiqamətinə göndərildiyini və hazırda «Cənubi Qaz Dəhlizi» layihəsinin uğurla icra edildiyini xatırladıb.

**Davamı 2-ci səhifədə**

Vergilər Nazirliyində görüş — səh. 2

Azərbaycan vergi sahəsində şəffaflıq və məlumat mübadiləsini genişləndirir — səh. 3

Dayanıqlı iqtisadi inkişafın təməlləri güclənir — səh. 4

Biznes və azad rəqabət üçün yeni imkanlar yaranır — səh. 5

# İtaliya Prezidenti Sercio Mattarella Azərbaycanda rəsmi səfərdə olub

Əvvəli 1-ci səhifədə

İtaliya Prezidenti Sercio Mattarella bəyanatında bildirib ki, İtaliya Azərbaycanı özünün etibarlı tərəfdaşı hesab edir və bir çox sahələrdə yaxşı əməkdaşlıq mövcuddur: «Bizim münasibətlərimiz siyasi, iqtisadi, energetika baxımından, təbii ki, ən əhəmiyyətli rola malikdir. Lakin bundan əlavə, Azərbaycan ilə İtaliya arasında mədəniyyət sahəsində də əməkdaşlıq mövcuddur. Biz fikirləşirik ki, elm və texnologiyanın hesabına hər iki dövlət arasında mədəniyyət sahəsində olan əməkdaşlığı inkişaf etdirə bilərik».

Mətbuat konfransından sonra Azərbaycan və İtaliya prezidentləri Sumqayıt Kimya Sənaye Parkının ərazisində «SOCAR Polymer» layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılış mərasimində iştirak ediblər. Mərasimdə çıxış edən dövlətimizin başçısı bildirib ki, bu müəssisənin yaradılması İtaliya-Azərbaycan dostluğunun təzahürüdür: «İtaliya şirkəti «Maire Tecnimont» bütün inşaat işlərini yüksək səviyyədə aparmış və gözəl bir əsər yaratmışdır. Bu gün polipropilen zavodunun və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsi nəticəsində Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaq. Hər iki zavodda hər il 300 min ton məhsul istehsal olunacaq və məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək. Beləliklə, Azərbaycan idxaldan asılılığı tamamilə aradan götürəcək və ölkəmizin böyük həcmdə qeyri-neft ixracı yaradılacaqdır».



Azərbaycanla İtaliya arasında əməkdaşlıq bir çox sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni və digər istiqamətlər üzrə uğurla inkişaf edir

Prezident Sercio Mattarella isə bildirib ki, bu zavodun istifadəyə verilməsi Azərbaycanda yüksək texnologiyaya malik müəssisənin olmasını göstərir: «Biz burada gördük ki, texniki imkanlarından əlavə müəssisənin sənaye şərait kimi dizaynı da çox gözəldir. Bu, çox əhəmiyyətli bir layihədir. Çünki ölkənin sənaye imkanlarını yüksək əlavə dəyər baxımından möhkəmləndirir. Həmçinin təbii ki, Azərbaycan ilə İtaliya arasında əməkdaşlığın nə dərəcədə yüksək potensiala malik olduğunu bir daha göstərir».

İyulun 18-də təltifetmə mərasimi keçirilib. Mərasimdə İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycanın ali dövlət mükafatı olan «Heydər Əliyev» ordeni, Prezidentin qızı Laura Mattarellanın «Şöhrət» ordeni, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Enzo Moavero Milanesinin isə «Dostluq» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamları oxunub və dövlətimizin başçısı İlham Əliyev ordenləri təqdim edib. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliyanın «Xidmətlərinə görə» böyük lentlə birlikdə Böyük Xaç Kavaleri ordeni və birinci xanım Mehriban Əliyevanın «Xidmətlərinə görə» Böyük Xaç Kavaleri ordeni ilə təltif edilməsi haqqında İtaliya Respublikası Prezidentinin - «Xidmətlərinə görə» ordenin rəhbərinin 2018-ci il iyulun 12-də imzaladığı sərəncamlar elan olunub. İtaliya Prezidenti Sercio Mattarella ordenləri təqdim edib.

İyulun 19-da Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İtaliya biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella forumda iştirak ediblər. Biznes forumda Azərbaycan və İtaliya tərəfindən rəsmi şəxslərlə yanaşı, enerji, tikinti, dizayn və memarlıq, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, logistika, mühəndislik, sənaye sahələrində fəaliyyət göstərən 350-dək iş adamı iştirak edib. Dövlət başçıları biznes forumda çıxış ediblər. Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, hər iki ölkənin iqtisadi sahədəki gələcək əməkdaşlığını daha da genişləndirmək üçün güclü potensialı vardır: «Hesab edirəm ki, bizim sənaye inkişafımızla bağlı olan gələcək layihələrdə İtaliya şirkətləri fəal iştirak edəcəklər. Biz şad olardıq ki, İtaliya şirkətləri Azərbaycana daha böyük həcmdə investisiya qoysunlar. Bunun üçün yaxşı imkanlar var. İtaliya şirkətləri Azərbaycanın müxtəlif sahələrində podratçı, kontraktor kimi fəaliyyət göstərirlər. Hazırda biz bunu görürük. İnşaat, infrastruktur, ağır sənaye, kənd təsərrüfatı, emal sektorlarında belə əməkdaşlıq var. Ancaq hesab etmirəm ki, bu, lazımi səviyyədədir. Biz bu səviyyəni qaldırmalıyıq və biznes dairələri bu barədə bu gün danışacaqlar. Ona görə, sərmayə qoyuluşu və podratçı kimi fəaliyyət hesab edirəm ki, növbəti illər üçün əsas istiqamətlər olmalıdır».

İtaliya Prezidenti Sercio Mattarella isə qeyd edib ki, bizim iqtisadiyyatlarımız bir-birini tamamlayır. İtaliya Azərbaycana yalnız ticari mübadilələrdə deyil, karbohidrogen sahəsindən əlavə öz potensialının və iqtisadi sisteminin şaxələndirilməsində və sənaye proqramlarının inkişafında istinad edilən etibarlı bir tərəfdaş ola bilər: «Şaxələndirmə Azərbaycanın əsas hədəflərindən biridir. Buna dəstək məqsədilə İtaliya fərqli təcrübələrini, texnologiyalarını, bacarıq və qabiliyyətlərini Azərbaycana təqdim edə bilər. Son illərdə italyan müəssisələri tərəfindən həyata keçirilən layihələrdən də göründüyü kimi, İtaliya enerji sahəsində, karbohidrogenlərin nəqlində və kimya sənayesində dünyada yüksək səviyyədə olan bir irsə malikdir. Bu forumda italyan şirkətlərinin geniş tərkibdə iştirakı bizim ölkədə kifayət qədər tanınan kiçik və orta tipli müəssisələrə də diqqət ayıraraq əlaqələrimizi daha da strukturlaşdırmaq və genişləndirmək üçün iqtisadiyyatın bütün sahələrində əməkdaşlığımızın inkişafına nə qədər önəm verdiyimizin ən bariz sübutudur. Mən bir daha kiçik və orta tipli müəssisələrin fəaliyyətini, onların Azərbaycana cəlb olunmasını xüsusi vurğulamaq istərdim».

# Vergilər Nazirliyində görüş



İyulun 19-da Vergilər Nazirliyində Belçika Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bert Şufs ilə görüş keçirilib.

Vergilər naziri Mikayıl Cabbarov qonağa ölkəmizdə mövcud olan vergi mühiti və xarici investorlar üçün yaradılan şərait barədə məlumat verib. Görüşdə Azərbaycanda iqtisadi sahədə aparılan islahatlar, ölkələrarası ticarətin genişlənməsi, investisiyaların yatırılması və əməkdaşlıq məsələlərinə toxunulub.

Tərəflər Azərbaycan və Belçika Krallığı arasında iqtisadi əməkdaşlığın perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparıblar.

# Azərbaycanın ÜTT üzvlüyünə hazırlıq məsələləri müzakirə edilib

**Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasında Avropa İttifaqı (Aİ), «DMI Associates» konsorsiumu və «Ekvita Consulting» MMC-nin dəstəyi ilə «Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyə hazırlıq, onun kənd təsərrüfatı və aqroərzaq zəncirinin iştirakçılarına faydası» mövzusunda «dəyirmi masa» keçirilib.**

Tədbirdə Azərbaycan Sahibkarlar Konfederasiyasının, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin əməkdaşları ilə yanaşı, ölkədə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin nümayəndələri iştirak ediblər.

Dünyanın əksər ölkələrinin üzv olduğu ÜTT əmtəə, xidmətlər və intellektual mülkiyyətlə beynəlxalq ticarəti tənzimləyən ən mühüm təşkilatdır və ölkəmizin bu quruma üzv olması istiqamətində danışıqlar aparılır. Avropa İttifaqının Azərbaycanı ÜTT-yə üzvlük danışıqlarında dəstəklədiyini deyən Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin əməkdaşı Ülviyyə Abdullayeva bildirib ki, bu məsələdə qurum Azərbaycana dəstək verməkdə maraqlıdır: «ÜTT həm də Avropa İttifaqı ilə Azərbaycan arasında olan münasibətlərin inkişafı baxımından önəm kəsb edir. Ötən il Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı və Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında yeni saziş üzərində danışıqların başlaması ilə bağlı sərəncam imzalayıb. Bu, 1999-cu ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişini əvəzləyəcək. Ötən ilin fevral ayında bu istiqamətdə danışıqlara start verilib. Lakin sənədin ticarət, əsasən də ÜTT ilə bağlı olan hissəsində bəzi məsələlər tam həllini tapmayıb. Ticarətə aid olan hissədə bütün müddəalar ÜTT qaydalarına uyğunlaşdırılmalıdır. Bir növ Avropa İttifaqı ilə Azərbaycan arasında yeni hərtərəfli sazişin imzalanması üçün ÜTT ilkin şərtə çevrilir. Bu baxımdan, belə demək mümkünsə, ÜTT-yə nə qədər yaxın olarıqsa, bir o qədər danışıqlar sürətlənər və yekunda Aİ ilə Azərbaycan arasında yeni saziş imzalanmış olar». Qeyd olunub ki, Azərbaycanın bu təşkilata üzv olması nəticə etibarilə ölkənin davamlı iqtisadi inkişafına və əhalinin sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına xidmət edir.

«ÜTT-yə üzvlük danışıqlarında İqtisadiyyat Nazirliyinin Ticarət siyasəti və ÜTT şöbəsinə dəstək və potensialın gücləndirilməsi» layihəsinin qrup rəhbəri Marius Bordalba bildirib ki, Azərbaycan bu təşkilata üzv olduqdan sonra ixrac zamanı yerli şirkətlər ÜTT qaydalarının müdafiəsini əldə etmiş olacaqlar.

# Əlverişli vergi mühiti biznesin canlanmasına zəmin yaradır

2018-ci ilin 6 ayı ərzində vergi ödəyicilərinin qeydiyyatı və uçotu sahəsində müsbət dəyişikliklərlə əlamətdar olub: qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayı 40.706 (6.033 hüquqi şəxs, 34.673 fiziki şəxs), fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin sayı isə 47.477 təşkil edib. Qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin ümumi sayı ilə eyni dövrdə fəaliyyətini dayandırmış və vergi uçotu ləğv edilmiş vergi ödəyicilərinin sayı arasındakı fərq 6.681 olub. Yeni fəaliyyətə başlayan vergi ödəyicilərinin böyük hissəsi istehsal, ticarət, xidmət, tikinti və nəqliyyat sahələrini təmsil edir.

Vergilər Nazirliyinin nəzarət-kassa aparatı (NKA) quraşdırmamış və kassa çeki təqdim etməyən təsərrüfat subyektlərinin sahiblərinə müraciətləri, bu istiqamətdə təşviqedici xarakterli tədbirlərin genişləndirilməsi müsbət dəyişikliklərə səbəb olub. İlin əvvəlindən indiyədək 8.501 yeni NKA qeydiyyata alınıb. Qarşıdakı dövrdə nağd pul dövriyyəsinə vergi nəzarətinin daha da gücləndirilməsi məqsədilə ticarət və iaşə məntələrində NKA-ların qeydiyyatının daha da sadələşdirilməsi nəzərdə tutulur. Nazirliyin təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması ilə bağlı keçirdiyi izahedici və təşviqedici xarakterli tədbirlər də öz bəhrələrini verir. Və azadolmaların tətbiqi, sahibkarlığın və ixracın təşviqi, vergi yükünün aşağı salınması biznesin canlanmasına əlverişli zəmin yaradır.

E-qeydiyyat sisteminin tətbiqi sayəsində kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı ərəfəsində yerinə yetirilməli olan 3 məcburi prosedurdan keçmək zərurəti tamamilə aradan qaldırılıb, ümumilikdə qeydiyyatın aparılmasına sərf edilən müddət 1 günədək azalıb. Ölkədə biznesə başlama ilə bağlı prosedurlar 15-dən 2-yə, sərf olunan vaxt isə 30 gündən 2 günə endirilib. «Elektron lisenziya» portalının istifadəyə verilməsi ilə lisenziyalaşdırma prosedurları elektronlaşdırılıb və nəticədə şəffaflığın artmasına şərait yaranıb. Sahibkarlar sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə və digər sənədləri portaldan və ya «ASAN xidmət»dən əldə edirlər. Lazım olan sənədləri həm qısa zaman ərzində, həm də az xərc çəkməklə əldə etmək mümkündür.

### Azərbaycanda xarici şirkətlərin sayı artır

Sahibkarlıq sektoru üçün yaradılmış əlverişli mühit və həyata keçirilən səmərəli vergi siyasəti ölkəmizdə fəaliyyət başlayan xarici sərmayəçilərin sayının artmasına səbəb olub. Respublikamızda investisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırır. 2017-ci il ərzində Azərbaycanda 972 xarici investisiyalı şirkət qeydiyyata alınıb ki, bu da 2016-cı illə müqayisədə 39,5% artım deməkdir. 2018-ci ilin yanvar-iyun ayları ərzində isə 681 xarici şirkət hüquqi şəxs kimi qeydiyyata alınıb. Həmin şirkətlərin daha çox maraq göstərdikləri qeyri-neft sektoruna aid sənaye, tikinti, nəqliyyat, ticarət, turizm və xidmət sahələridir.

Hazırda ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Həmin şirkətlərin 30%-ə yaxını Türkiyəni təmsil edir, bundan sonra isə Rusiya, Böyük Britaniya, ABŞ və Fransadan olan investisiyalı müəssisələr gəlir. Cənubi Koreya, Yaponiya, İran, Belarus, Litva, Latviya, İtaliya və digər ölkələrin şirkətləri də Azərbaycanın iqtisadi tərəfdaşları sırasındadır.

### Təkmilləşmə həmişə zəruridir

2018-ci ilin 6 ayı ərzində vergi ödəyicilərinin qeydiyyatı prosedurlarının təkmilləşdirilməsi və vergi inzibatçılığı prosesinin sadələşdirilməsi məqsədilə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatında istifadə olunan proqram təminatında bir sıra dəyişikliklər aparılıb. İstifadəçilərə MMC-lərin elektron qeydiyyatı çərçivəsində ƏDV məqsədləri üçün qeydiyyat və bank hesabı açmaq üçün şəhadətnamə-dublikat alınması barədə ərizələrin təqdim edilməsi və iş tipli sertifikatın əldə olunması imkanları yaradılıb. Yerli investisiyalı kommersiya hüquqi şəxslərin elektron qeydiyyatı ilə bağlı 3 dildə məlumat hazırlanaraq nazirliyin internet səhifəsində yerləşdirilib. Uçotsuz fəaliyyət göstərən vergi ödəyicilərinin və təsərrüfat subyektlərinin operativ qaydada vergi uçotuna alınması ilə bağlı tədbirlər həyata keçirilir.

> İnvestisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırır

Xüsusilə son dövrlərdə ölkəmizə turist axını ilə əlaqədar otellər, istirahət mərkəzləri, restoran və iaşə obyektlərində daha çox POS-terminalın quraşdırılmasına səbəb olub. Təkcə bu ilin yanvar-iyun aylarında POS-terminalların sayında 36% artım qeydə alınıb.

### Elektron qeydiyyat vergi rejiminə müsbət təsir göstərir

Vergilər Nazirliyi tərəfindən hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, biznesə başlama prosedurlarının əsaslı şəkildə sadələşdirilməsi, vergi güzəşti

«Doing Business 2019» hesabatının «biznesə başlama» indikatoru üzrə Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi istiqamətində təkliflərin hazırlanması ilə əlaqədar olaraq «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanuna nəzərdə tutulan dəyişikliklərlə bağlı hazırlanmış layihədə müəssisənin dövlət qeydiyyatı məqsədilə hüquqi ünvanı təsdiq edən sənədin yalnız qeyri-kommersiya qurumları üzrə təqdim olunması, kommersiya qurumunun dövlət qeydiyyatı məqsədilə təqdim olunan ərizədə isə hüquqi ünvanın bəyan edilməsi nəzərdə tutulub.

**Elbrus CƏFƏRLİ**

# Azərbaycan vergi sahəsində şəffaflıq və məlumat mübadiləsini genişləndirir

**Gürcüstanın paytaxtı Tbilisi şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) dəstəyi ilə «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum»un növbəti tədbiri keçirilib.**



Forumda vergilərlə bağlı həm qlobal, həm də regional səviyyəli məsələlər müzakirə olunub. Yüksək səviyyəli tədbirdə OECD yanında Vergi siyasəti və inzibatçılığı Mərkəzinin direktoru Paskal Sent-Amans, Gürcüstanın maliyyə naziri İvane Maçavariani, İtaliya vergi komissarının müavini Paolo Valerio Barantini, Ukrayna Respublikası Ali Radasının Vergitutma və gömrük komitəsinin sədri Nina Yujanina, Beynəlxalq Valyuta Fondunun nümayəndəsi Filip Makkuin, Gürcüstan Parlamentinin Maliyyə və büdcə komitəsinin sədri İrakli Kovzanadze, Asiya İnkişaf Bankının nümayəndəsi Çaradin Bandon, İsveç Vergi Agentliyinin direktoru Arne Yakobson, Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon, OECD-nin, habelə vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumunun rəhbər vəzifəli əməkdaşları, bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri maraqlı təqdimatlarla çıxış ediblər.

Azərbaycanı bu mötəbər tədbirdə təmsil edən nümayəndə heyətinin rəhbəri, vergilər nazirinin müavini Sahib Ələkbərov regional forumda regionun maliyyə hesabları haqqında avtomatik məlumat mübadiləsinin yeni standartını tətbiq etmiş ilk və yeganə ölkəsi olan Azərbaycanın təcrübəsi barədə danışıb. Bildirib ki, Azərbaycan OECD-nin məlumat mübadiləsi standartlarının tətbiqi istiqamətində ciddi işlər apararaq uzun və çətin bir yol qət edib. Bu yolda ilk uğurlu addım 2013-cü il fevralın 26-da Azərbaycanın «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumu»a üzv qəbul edilməsi olub.

Sahib Ələkbərov bildirib ki, ölkəmiz foruma üzv olduqdan sonra öz üzərinə şəffaflıq və vergiyə aid məlumatların mübadiləsi, həmçinin qanunvericiliyin beynəlxalq standartlara cavab verməsinin qiymətləndirilməsinin ikipilləli prosesdən keçməsi və onların təcrübədə tətbiq edilməsi ilə bağlı öhdəliklər götürdü: «Bu sahədə növbəti addım 2014-cü il mayın 23-də Azərbaycan Respublikasının iştirakçı ölkələr arasında bank məlumatının qeyd-şərtsiz açıqlanmasını və mübadiləsini nəzərdə tutan çoxtərəfli «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında Konvensiya»nın protokolunu imzalaması oldu. 2015-ci ildə isə ölkəmizin vergi sahəsində məlumat mübadiləsinin tətbiqi mexanizmləri üzrə qanunvericiliyinin müsbət qiymətləndirilməsi növbəti mərhələyə uğurla keçməyə imkan verdi. 2016-cı ilin mart ayında OECD ekspertləri Azərbaycana gələrək müvafiq dövlət qurumları ilə keçirdiyi görüşlərdə vergi inzibatçılığı sahəsində və məlumat mübadiləsi prosesində şəffaflıq prinsiplərinin tətbiqi üzrə aparılan işlərlə əyani şəkildə tanış oldular. Vergilər Nazirliyində tətbiq edilən AVİS - Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi ilə tanışlıq onlarda ölkəmizdə beynəlxalq standartlara cavab verən sistemin formalaşdığına əminlik yaradıb. 2016-cı il sentyabrın 30-da Azərbaycana «largely compliant» - «əhəmiyyətli dərəcədə uyğunluq» yüksək reytinqi verildi. Bu, Azərbaycanın şəffaflığı təmin edən, bütün tərəfdaş ölkələrlə məhsuldar informasiya mübadiləsi aparmağa imkan yaradan və beynəlxalq standartlara cavab verən müasir vergi sisteminə malik olduğunu sübut edən mühüm göstərici deməkdir».

Nazir müavini bildirib ki, bu istiqamətdə işlərin davamı kimi, ölkəmiz könüllü olaraq 2018-ci ildən maliyyə hesabları haqqında yeni avtomatik məlumat mübadiləsi standartının tətbiqi niyyətini bəyan edib: «Azərbaycan və ABŞ hökumətləri arasında 2015-ci il sentyabrın 9-da imzalanmış «Azərbaycan və ABŞ tərəfindən vergi tələbləri və FATCA tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara riayət edilməsinin yaxşılaşdırılması haqqında» müqavilə çərçivəsində əldə olunmuş təcrübə mühüm rol oynamaqdadır».

Sahib Ələkbərov vurğulayıb ki, Vergilər Nazirliyi səlahiyyətli orqan kimi, 2017-ci il iyunun 1-də maliyyə hesabları haqqında avtomatik informasiya mübadiləsi haqqında səlahiyyətli orqanların çoxtərəfli müqaviləsinin bəyannaməsini imzalayaraq, ilk avtomatik informasiya mübadiləsini vaxtından xeyli əvvəl - 2018-ci ilin sentyabr ayında həyata keçirməyi öhdəsinə götürüb.

«Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi qaydası»na dəyişikliklər təsdiq edilib, bununla da normativ-hüquqi bazamız beynəlxalq standarta tam uyğunlaşdırılıb: «İndiyədək Vergilər Nazirliyi standartın Çoxtərəfli Müqavilədə nəzərdə tutulmuş tələblərinin yerinə yetirilməsi haqqında bütün zəruri xəbərdarlıqları göndərib, bir sıra texniki məsələləri həll edib, hesab açılarkən doldurulan özünüqiymətləndirmə anketinin vahid formasını işləyib hazırlayıb, maliyyə müəssisələrinin qeyri-rezidentlərin hesabları haqqında məlumat təqdim edəcəkləri hesabatların formasını təsdiq edib».

Nazir müavini əmin olduğunu bildirib ki, maliyyə hesabları haqqında avtomatik məlumat mübadiləsinin yeni standartının işlənib hazırlanması və təsdiq edilməsi dünyada maliyyə əməliyyatlarının daha da şəffaflaşmasına, pul axınlarının offşorlara çıxarılmasının məhdudlaşdırılmasına imkan verəcək, bu isə büdcəyə vergi daxilolmalarının artmasına şərait yaradacaq: «Hesab edirəm ki, təkcə avtomatik maliyyə hesabları haqqında məlumat mübadiləsinin yeni standartı haqqında yox, həm də başqa ölkələrin ərazilərində gəlir əldə edən rezidentlərin bütün növ gəlirləri haqqında düşünməyin də vaxtı çatıb. Bu, bir sıra dövlətlərin ərazilərində onların nəzarətindən kənarda olan yerlərdə, adətən, terrorizmin maliyyələşdirilməsi üçün istifadə edilən qeyri-qanuni gəlirlərin əldə olunmasının da qarşısını almağa imkan verərdi».

İclasda moderatorluq edən OECD yanında Vergi siyasəti və inzibatçılığı Mərkəzinin direktoru cənab Paskal Sent-Amans bu təklifin hazırkı şəraitdə çox böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Təklif tədbir iştirakçıları tərəfindən də maraqla qarşılanıb.

# Qeyri-qanuni sahibkarlıq gizli məşğulluğu «stimullaşdırır»

## Vergi orqanlarında uçota alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq ciddi qanun pozuntusudur

İstənilən ölkənin dinamik və keyfiyyətli inkişafı sahibkarlığın səviyyəsindən, biznes mühitinin əlverişliliyindən, özəl sektorun əhatə və fəaliyyət dairəsinin genişləndirilməsindən çox asılıdır. Biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafına geniş meydan verilməsi həm də ölkənin maliyyə resurslarının artırılmasını zəruri edir. Azərbaycanın əldə etdiyi nailiyyətlərin ən başlıca amillərindən biri ölkədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsidir.

Təəssüf ki, bəzi işbazlar ölkədəki əlverişli biznes mühitindən sui-istifadə edərək vergi orqanlarında uçota durmaqdan yayınırlar. Məqsəd həm də vergidən yayınmaq, əmək bazarındakı tələb-təklifin yüksək olmasından istifadə edərək daha asan yollarla gəlir əldə etməkdir. Bütün bunlar ölkə iqtisadiyyatının ümumi inkişafına, iqtisadi proseslərin tarazlığına mənfi təsir göstərir.

Qanunsuz sahibkarlıq fəaliyyəti özünü iki formada büruzə verir. Bunlardan birincisi, ümumiyyətlə, vergi və digər nəzarət orqanlarında qeydiyyata alınmadan fəaliyyət göstərənlərdir ki, onlar həm xidmət və məhsullarını, əldə etdikləri gəlirlərini, həm də işçilərinin sayını gizlədir. Digəri isə sahibkarlıq subyekti kimi vergi orqanlarında qeydiyyatdan keçən, lakin fəaliyyətində ciddi qanun pozuntularına yol verən fiziki və hüquqi şəxslərdir. Belə sahibkarlıq subyektləri işçilərin sayının gizlədilməsindən tutmuş fəaliyyət sahəsinə aid edilməyən iş və xidmətlər göstərilməsinədək çeşidli qanun pozuntularına yol verirlər.

Bəs, qanunsuz sahibkarlıq fəaliyyəti əmək bazarına necə təsir göstərir? Vergi orqanlarında qeydiyyata durmadan sahibkarlıqla məşğul olan şəxslər üçün hansı cəza tədbirləri nəzərdə tutulur? Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov bildirir ki, qanunsuz sahibkarlıq fəaliyyəti əmək bazarında nizam-intizamın, işçilərin əmək hüquqlarının pozulmasına gətirib çıxaran əsas səbəblərdən biridir. Onun sözlərinə görə, qanunsuz sahibkarlıq və qeyri-rəsmi əmək münasibətləri bir-biri ilə sıx bağlıdır və bu, uzun müddət davam edən problem kimi həmişə aktual olub: «Qanunsuz sahibkarlıq fəaliyyəti tikinti sektorunda, ticarət və xidmət sahələrində, hətta bəzi istehsal sahələrində üstünlük təşkil edir. Bu, vergi öhdəliklərinin yerinə yetirilməsində, eləcə də əmək bazarında kifayət qədər problem yaradır. Xüsusən bir sıra tikinti şirkətlərinin əmək müqaviləsi olmadan işə cəlb etdikləri fəhlələrin və digər kateqoriyalı işçilərin iş yerində baş verən bədbəxt hadisələrdən sığortalanması imkanları məhdudlaşır. Baş verən bədbəxt hadisə gizlədildiyi üçün işçinin qanunvericilikdə nəzərdə tutulmuş sosial hüquqlarının qorunmasını çətinləşdirir».

> Qanunsuz sahibkarlığa qarşı mübarizə tədbirləri daha da sərtləşdirilməlidir ki, həm vergidən yayınma hallarının qarşısı alınsın, həm də əmək bazarındakı münasibətlər qanunun tələb etdiyi qaydalar çərçivəsində qurulsun

S.Məmmədovun fikrincə, qanunsuz sahibkarlıq həm də işəgötürənlə işçi arasında baş verən sövdələşmə olduğundan bunun üstünü açmaq, xüsusən istehsalatda çalışan işçilərin sayını müəyyənləşdirmək çətinlik yaradır: «İki şəxs arasında əldə olunan sövdələşmədə bu problemləri ortaya qoymaq, aşkarlamaq üçün imkanlar məhduddur. Ona görə də qanunsuz sahibkarlığa qarşı mübarizə tədbirləri daha da sərtləşdirilməlidir ki, həm vergidən yayınma hallarının qarşısı alınsın, həm də əmək bazarındakı münasibətlər qanunun tələb etdiyi qaydalar çərçivəsində qurulsun».

### Problemin həlli ciddi nəzarət tədbirlərini zəruri edir

Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadənin sözlərinə görə, Azərbaycanda əmək ehtiyatları sürətlə artır və bu, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün daha yaxşı imkanlar açır: «Çünki hər əmək ehtiyatının artması işə tələbi də artırır. Amma yeni iş yerlərinin yaradılması ilə əlaqədar müəyyən problemlər də ortaya çıxır. Tikintidə əmək məhsuldarlığı və bir işçiyə düşən məhsulun həcmi nə qədərdir? Bunu ayrı-ayrı ölkələrlə müqayisə etsək görərik ki, həmin göstərici Azərbaycanda yüksəkdir. Necə ola bilər ki, Azərbaycanda əmək qabiliyyətli əhalinin sayı yüksəkdir, ölkədə bu qədər yeni iş yerləri yaradılır, amma işçilərin sayı yenə də kifayət qədər deyil. Deməli, bəzi sahibkarlar işçilərin sayını süni şəkildə azaldır. Qeyri-qanuni sahibkarlıq fəaliyyəti hesabına gizli məşğulluq davam edir və bunun nəticəsində çox böyük məbləğdə vəsait vergidən yayındırılır. Ona görə də biz bu problemlərin həllini ciddi nəzarətə götürməliyik, sahibkarlıq fəaliyyəti üçün yaradılmış şəraitdən sui-istifadə hallarının qarşısının alınması üçün təsirli tədbirlər görməliyik».

Yeri gəlmişkən, Vergilər Nazirliyində həyata keçirilən struktur islahatları çərçivəsində uçot-qeydiyyat sistemində də ciddi yeniliklər nəzərdə tutulur. Struktur islahatlarına uyğun olaraq, sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı prosesi yeni yaradılan Dövlət qeydiyyatı və uçota nəzarət departamentinə həvalə edilib. Departament kommersiya hüquqi şəxslərin və fərdi sahibkarların dövlət qeydiyyatı işinin müasir tələblərə uyğunlaşdırılması, uçot-qeydiyyat məlumat bazalarının təhlili istiqamətində fəaliyyət göstərəcək. Bu islahatların əsas məqsədlərindən biri də dövlət qeydiyyatı sahəsində işin keyfiyyətinin artırılması, mütərəqqi yeniliklərin tətbiq olunması, uçot-qeydiyyat məlumat bazalarının dürüstləşdirilməsini təmin etməkdir.

### Qanunu pozanları ciddi cəza gözləyir

Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün cəza tədbirlərinə gəlincə, Sahib Məmmədov bildirir ki, İnzibati Xətalar Məcəlləsi 1 nəfərdən 9 nəfərə qədər müqaviləsiz işçi işlətməyə görə hüquqi şəxslərin 20 mindən 25 min manata qədər, fiziki şəxslərin 3 min manata qədər, vəzifəli şəxslərin isə 5 min manata qədər cərimələnməsini nəzərdə tutur: «10 nəfər və daha artıq şəxsi qanunsuz işlətmək isə Cinayət Məcəlləsi ilə tənzimlənir. Bu zaman 2 il azadlıqdan məhrumetmə, azadlığın məhdudlaşdırılması, islah işlərinə cəlbetmə və 7 mindən 10 min manata qədər cərimə tətbiq olunur. Materiallarda cinayət tərkibi olduqda Baş Prokurorluğa göndərilir».

Qeyd etdiyimiz kimi, qanunsuz sahibkarlıq təkcə hər hansı inzibati məsuliyyət tədbiri və ya maliyyə sanksiya ilə məhdudlaşmır. Cinayət Məcəlləsinin 192-ci maddəsinə əsasən, qanunsuz sahibkarlıq dedikdə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda lisenziya almadan, həmçinin lisenziyalaşdırılma şərtlərinin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq vətəndaşlara, təşkilatlara və ya dövlətə xeyli miqdarda ziyan vurulması, habelə xeyli miqdarda gəlir əldə etməklə törədilməsi başa düşülür. Qanunvericilik bütün halları nəzərə alır və cəza tədbiri vurulmuş ziyanın və ya əldə edilmiş gəlirin miqdarına müvafiq olaraq tətbiq olunur. Vurulmuş ziyanın miqdarı 1000 manatdan 7000 manatadək olduqda, habelə 1000 manatdan 7000 manatadək olan miqdarda gəlir əldə edilməklə törədildikdə, bu əməl Cinayət Məcəlləsinin 192-ci maddəsi ilə tənzimlənir. Həmin əməli törətmiş şəxsə isə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq olunur. Eyni əməllər külli miqdarda (7000 manatdan artıq olduqda) ziyan vurmaqla, yaxud külli miqdarda (7000 manatdan artıq olduqda) gəlir əldə etməklə törədildikdə, yaxud mütəşəkkil dəstə tərəfindən törədildikdə həmin şəxsə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç misli miqdarında cərimə və ya bir ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq olunur.

Bir daha xatırladırıq ki, vergi uçotuna alınmadan hər hansı sahibkarlıq fəaliyyətinin göstərilməsi bütün dünyada, o cümlədən Azərbaycanda ciddi qanun pozuntusu hesab edilir və qanunvericiliyə müvafiq qaydada cəza tədbirləri ilə müşayiət olunur.

**Elxan SALAHOV**

# Vergi məsələləri ilə bağlı beynəlxalq seminar

Çin Xalq Respublikasının Yançjou şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təşkilatçılığı ilə «Vergi müqavilələri, vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi (BEPS)» mövzusunda seminar keçirilib. Seminarda OECD-nin Fiskal məsələlər üzrə komitəsinin gördüyü işlər, BEPS layihəsinin icra vəziyyəti, ikitərəfli və çoxtərəfli sazişlərin icrası, beynəlxalq vergitutmada yeni meyarlar və məsələlər barədə fikir mübadiləsi aparılıb.

Tədbirdə Kanada, Avstraliya, Yeni Zelandiya, İndoneziya, Maldiv adaları, Çin, Honk-Konq, Hindistan, Şri-Lankanın maliyyə və vergi sahəsi üzrə mütəxəssisləri «Beynəlxalq vergitutma və vergi müqavilələrinə ümumi baxış», «Yenilənmiş 2017-ci il OECD modeli: BEPS-lə əlaqəli seçilmiş dəyişikliklər», «Beynəlxalq hava nəqliyyatı və daşımanın vergiyə cəlb edilməsi ilə əlaqəli dəyişikliklər», «Daimi nümayəndəlik anlayışı və BEPS-in 7-ci Hərəkət Planı», «Mənfəətin daimi nümayəndiliyə aid edilməsi», «Müqavilələrdən sui-istifadə ilə mücadilə: faktiki sahibdən BEPS-in 6-cı hərəkət planınadək», «İcarənin, royaltinin, proqram təminatının və digər intellektual mülkiyyət hüquqlarının vergiyə cəlb edilməsi» və digər mövzularda təqdimatlarla çıxış ediblər.

Seminarda ölkəmizi Vergilər Nazirliyinin İkitərəfli və çoxtərəfli sazişlərin icrasına nəzarət departamentinin əməkdaşı Məmməd Həsənov təmsil edib.

# Bakı reytinqdə liderdir

«TurStat» analitik agentliyi rusiyalı turistlərin yay səyahətləri üçün MDB ölkələrinin populyar şəhərlərinin reytinqini təqdim edib.

Reytinq 2018-ci ilin yayında turist səfərlərinin populyarlığının təhlilinə əsasən tərtib olunub. Bakı, Minsk, Almatı, Astana, Bişkek, Daşkənd, Kişineu, Düşənbə və Aşqabad 2018-ci ilin yayında rusiyalı turistlərin MDB-də üz tutduqları şəhərlərin onluğunda yer alıb.

Agentliyin məlumatına görə, turistlər MDB şəhərlərinə yayda orta hesabla ikigünlük gəlir, sonra Bakıda Xəzəryanı kurortlarda, Belarusda Naroç göləndə, Almatıda Çimbulaq dağ kurortunda, Qazaxıstanda Borovoye kurortunda, Qırğızıstanda isə İssık-Kul gölündə dincəlirlər. Rusiyalı turistlər MDB ölkələrinin şəhər və kurortlarında bir gün qalmağa və yeməyə orta hesabla 50-100 dollar məbləğində pul xərcləyirlər.

Ən ucuz yay turları Kişineu və Bişkekdir, habelə həftəsonu və şopinq-turlar arasında Bakı və Astana liderlik edir.

# Özəlləşdirmə tam elektronlaşdırılır

Ölkə iqtisadiyyatının digər sahələri ilə yanaşı, əmlak idarəçiliyi sahəsində də müasir yanaşmaların tətbiqi, insan amilinə istiqamətlənmiş innovativ layihələrin reallaşdırılması, göstərilən xidmətlərin elektronlaşdırılması ilə bağlı yeni hədəflər müəyyənləşdirilib. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən daşınmaz əmlak idarəçiliyi sahəsində müəyyən olunmuş hədəflər torpaqların elektron uçotunun yaradılması və sistemli idarə edilməsi, ölkədə mükəmməl elektron kadastr uçotunun reallaşdırılması və torpaqlardan səmərəli istifadə edilməsində Peyk Nəzarət Sistemi qurulması prinsiplərini əhatə edir. Müasir texniki imkanların tətbiqi ilə bütün xidmətlərin vahid Metaməlumat sisteminə inteqrasiya olunması, özəlləşdirmənin tam elektronlaşdırılması qarşıya qoyulmuş hədəfləri reallaşdırır.

Özəlləşdirmə prosesində yeni mərhələ olan «Elektron hərrac» sistemi dövlət əmlaklarının elektron mühitdə, şəffaf formada özəlləşdirilməsi imkanlarını genişləndirir. İstifadəyə verilməsindən qısa müddət keçməsinə baxmayaraq, artıq 30-a yaxın şəxs hərraclara onlayn qaydada qoşularaq özəlləşdirmədə iştirak edib.

2018-ci ilin birinci yarısında ölkə üzrə 100 mindən çox daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınıb.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Pərakəndə ticarət obyektlərinə məhsulların verilməsi

***Məhsulların istehsalını və satışını həyata keçirən müəssisə tərəfindən həmin məhsulların anbardan pərakəndə ticarət obyektlərinə verilməsi hansı qaydada rəsmiləşdirilməlidir?***

Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2017-ci il tarixli 1341 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»nın 3.5-ci bəndinə əsasən, pərakəndə ticarət fəaliyyəti göstərən vergi ödəyicisinin bu fəaliyyətlə yanaşı, istehsal (o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı) və topdansatış fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) mövcud olduqda, həmin təsərrüfat subyektlərindən (obyektlərindən) malların pərakəndə satış fəaliyyətində istifadə üçün götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilir.

**Qeyd olunanlara əsasən:**

İstehsalçı müəssisə tərəfindən istehsal olunan məhsulların müəssisəyə məxsus təsərrüfat obyektlərində (subyektlərində) pərakəndə qaydada satışının həyata keçirilməsi məqsədilə həmin məhsulların satış üçün istehsal müəssisəsindən pərakəndə götürülməsi və ya qaytarılması «Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası» ilə sənədləşdirilməklə rəsmiləşdirilir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az**
elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- «Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu»nun xətti ilə indiyədək verilmiş **23 min 101** ipoteka krediti üzrə məbləğ **1 milyard 73 milyon 205 min 312** manatdan çox təşkil edib.
- 2018-ci ilin yanvar-iyun aylarında metro nəqliyyatından istifadə edən sərnişinlərin sayı ötən ilin müvafiq dövrünə nisbətən 2,3% artaraq **118,4 milyon** nəfərə çatıb.
- Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən avqustun 21-də keçiriləcək hərraca **151** dövlət əmlakı çıxarılıb, bunlardan **23**-ü səhmdar cəmiyyəti, **86**-sı kiçik dövlət müəssisəsi, **33**-ü qeyri-yaşayış sahəsi, **9**-u isə nəqliyyat vasitəsidir.
- Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində yanvar-iyun aylarında **430,2 milyon** manatlıq məhsul istehsal edilib, hazır metal məmulatlarının istehsalı sahəsində **64,1%**, metallurgiya sənayesində isə **15,0%** artım müşahidə olunub.
- «Trans-Adriatik» boru kəməri üzrə işlərin **75%**-i icra olunub.
- Yanvar-iyun aylarında Azərbaycanda elektrik avadanlıqlarının istehsalı **84,1%** artıb.

## 2018-ci İLİN İYUN AYI ƏRZİNDƏ

**Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı daxil olmuş 14.393 zəng cavablandırılıb**

Verilmiş «ASAN imza» sertifikatlarının sayı: **12.149**

Fəaliyyəti bərpa edilmiş vergi ödəyicilərinin sayı: **10.679**

**QEYDİYYATA ALINMIŞDIR**

hüquqi şəxslər: **829** | cəmi **5.673** | fiziki şəxslər: **4.844**

Təsərrüfat subyekti (obyekti): **2.268**

Nəzarət-kassa aparatı: **1.341**

POS-terminal: **644**

**VERGİ ÖDƏYİCİLƏRİNƏ XİDMƏT STRUKTURLARINDA**

qəbul edilmişdir: **25.155**

onlara göstərilmiş xidmətlərin sayı: **36.951**

**VERGİLƏR NAZİRLİYİNİN RƏSMİ İNTERNET SƏHİFƏSİNƏ DAXİLOLMALARIN SAYI**

**317.257**

# Dayanıqlı iqtisadi inkişafın təməlləri güclənir

2018-ci ilin birinci yarısında ölkənin ümumi daxili məhsulu 1,3 faiz artaraq 37009,1 milyon manata çatıb. İqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,0 faiz, neft sektorunda isə 0,1 faiz artıb. Bu dövrdə tikinti sektoru istisna olmaqla, iqtisadiyyatın bütün sahələrində istehsalın artımı müşahidə edilib, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində əlavə dəyər 7,6 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 7,4 faiz, nəqliyyat və anbar təsərrüfatı sahələrində 7,1 faiz, informasiya və rabitə sahələrində 4,9 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində 2,4 faiz, sənayedə 1,2 faiz, digər xidmət sahələrində 0,6 faiz artıb, tikintidə isə 10,5 faiz azalıb.
Əhalinin hər nəfərinə düşən ÜDM 3777,6 manata bərabər olub.

### Qeyri-neft sektorundakı artım ümumi sektoru üstələyir

Mövzu ilə bağlı fikirlərini bölüşən iqtisadçı alim Vüqar Bayramov qeyd edib ki, yarım ilin yekunlarına diqqət yetirən zaman bir sıra mühüm məqamlar qiymətləndirilməlidir: «2018-ci ilin yarımillik yekunlarına görə, inkişaf daha çox qeyri-neft sektoru hesabına baş verib. Praktiki olaraq, inkişafın mərhələli şəkildə neft sektorundan qeyri-neft sektoruna keçidini müşahidə edirik ki, bu da iqtisadiyyatın diversifikasiyası və iqtisadi şaxələndirmə baxımından olduqca böyük əhəmiyyət daşıyır. Qeyri-neft sektorundakı artım tempinin ümumi artım tempini üstələməsi kifayət qədər pozitiv məqamdır. Çünki qeyri-neft sektoru hesabına formalaşan iqtisadi inkişaf daha dayanıqlıdır və bu, neftdən asılılığın aradan qaldırılması baxımından olduqca vacibdir. 6 ay ərzində qeyri-neft ixracatında 20% artım qeydə alınıb, ümumi ticarət dövriyyəsi isə 37% artıb. Ticarət dövriyyəsinə diqqət yetirsək, burada 4,2 milyard dollarlıq müsbət saldo olduğunu müşahidə edərik. Başqa sözlə, ölkəyə daxil olan valyutanın həcmi ölkədən çıxan valyutanın həcmindən çoxdur. Bu isə makroiqtisadi sabitliyin qorunub saxlanılması, xüsusən də maliyyə sabitliyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir».

V.Bayramovun sözlərinə görə, yarım ilin yekunlarında digər əhəmiyyətli məqam ölkəmizin strateji valyuta ehtiyatlarının artmasıdır: «Azərbaycanda strateji valyuta ehtiyatları 44,3 milyard dollar həcmindədir. Ölkədə 2017-ci ildə ÜDM istehsalı 70 milyard manatdan çox olub ki, bu da təxminən 41,2 milyard dollar deməkdir. Azərbaycan az ölkələrdəndir ki, strateji valyuta ehtiyatları ümumi iqtisadiyyatın həcmindən 7% çoxdur. Bu da sığorta yastığının formalaşması baxımından çox vacibdir. Nəticə etibarilə, əgər xarici şoklar baş verərsə, bu şokların təsirini minimallaşdırmaq üçün Azərbaycan valyuta ehtiyatlarından istifadə etmək imkanlarına malikdir. Aparılan islahatlarda, hətta neftin qiymətinin aşağı olduğu dövrlərdə belə, əsas istiqamət valyuta ehtiyatlarındakı artım tempinin qorunub saxlanması olub. Bu, dövlət siyasətimizdə əsas prioritet məsələlərdəndir».

İqtisadçının bildirdiyinə görə, ilin ilk yarısında bütün makroiqtisadi göstəricilərdə artım qeydə alınıb. Bu isə onu göstərir ki, 2014-cü ildən həyata keçirilən sürətli iqtisadi islahatlar 2017-ci ildə iqtisadi stabilliyin əldə olunmasına imkan verib, bu il isə ötən il əldə edilmiş stabilliyin, artımın qorunub saxlanılması və daha sürətli iqtisadi artıma keçid dövrüdür.

### Ölkənin makroiqtisadi mənzərəsi necə görünür...

Azərbaycan Dövlət İqtisad Universitetinin professoru İrşad Məmmədov qeyd edib ki, 2018-ci ilin ilk altı ayında əldə etdiyimiz müsbət nəticələr 2017-ci ildə iqtisadi proseslərin stabilləşməsindən, iqtisadi inkişaf dinamikasının müsbətə doğru dəyişməsindən başlayıb: «İqtisadiyyatın kiçilməsi, resessiya amili 2017-ci ildə tədricən müsbət dinamika ilə əvəz olunmağa başlayıb ki, bu baxımdan da ötən ili həlledici il hesab etmək olar. Bu ilin ilk altı ayı ərzində artıq bütün universal makroiqtisadi göstəricilərdə irəliləyiş trend halını alıb. Həm ÜDM-də, həm də tədiyyə balansında və onun hər iki struktur hissəsində - həm cari hesablar, həm də maliyyə seqmentində müsbət proseslər baş verir».

İ.Məmmədovun fikrincə, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlarda məzmunlu effekt qısamüddətli perspektivlərlə əldə oluna bilməz: «Bunu həm iqtisadi nəzəriyyədən, həm də dünya təcrübəsindən görə bilərik. Əsas məsələ trendlərin formalaşması və gələcəkdə daha dayanıqlı, daha yüksək rəqəmlərlə ifadə olunan makroiqtisadi göstəricilərin əldə edilməsidir. Aparılan islahatların əsas nəticələrini daha çox orta və uzunmüddətli perspektivlərdə görəcəyik. Burada əsas hədəf iqtisadi artıma xidmət edən pul-kredit siyasətinin həyata keçirilməsi, büdcə-vergi siyasəti, texniki-iqtisadi, sənaye iqtisadiyyatı, xarici ticarətlə bağlı iqtisadiyyatın ümumi iqtisadi inkişafa yönəldilməsidir. Aparılan islahatlar da onu göstərir ki, artıq bu tendensiya formalaşmaqdadır. Makroiqtisadiyyatın ən önəmli seqmentlərindən biri olan və ölkədəki iqtisadi islahatların əsas inkişaf sektorunu müəyyən edən seqment pul-kredit siyasətindən ibarətdir ki, burada da son aylar müşahidə olunan boşalmalar onu deməyə əsas verir ki, bu proses daha dayanıqlı və məzmunlu xarakter almalıdır. Bu sahədə bank sektorunun üzərinə böyük məsuliyyət düşür. Banklar vəsaitlərin real sektora yönəldilməsi məsələsində başlıca funksiyası olan iqtisadiyyata transmissiyanı həyata keçirməlidirlər».

2018-ci ilin ilk yarısı üçün iqtisadi artım göstəriciləri
(faizlə)




Professorun sözlərinə görə, iqtisadi artımın əsas bünövrəsinin biri də innovasiyalarla bağlıdır. Bu baxımdan, innovasiyaların inkişafı üçün texniki-iqtisadi islahatlar həyata keçirilməlidir. Elmtutumlu sahələrin ölkə iqtisadiyyatında xüsusi çəkisini artırmaq lazımdır. Bunun üçün investisiyaların axınının artırılmasına ciddi ehtiyac var. 2020-ci ilədək investisiya həcminin 15 milyarda çatdırılması real və zəruri bir addım ola bilər.

### Son 5 ildə xarici bazarlarda yerimiz güclənib

«Bir pəncərə» İxraca Dəstək Mərkəzinin meneceri Nicat Hacızadə bildirib ki, Azərbaycan dünya təcrübəsində tez-tez rast gəldiyimiz ticarət evlərinin yaradılması tendensiyasına qoşularaq, bir sıra xarici ölkələrdə ticarət nümayəndəliklərini açmağa nail olub. Bu da, təbii ki, yerli məhsullarımızın xarici ölkələrə ixracının daha da asanlaşmasına və kənarda alıcıların daha asan tapılmasına kömək edir: «Ümumiyyətlə, Azərbaycanda son illər ixrac potensialında güclü artım müşahidə olunur. Bu istiqamətdə gömrük məntəqələrində sənədləşmələrin sadələşdirilməsi, daha az sənəd tələbatı, sertifikatların rahat və şəffaf qaydada alınması sahibkarların işini asanlaşdırır və ixraca dəstək olur. Bundan başqa, məhsul çeşidləri də get-gedə artmaqdadır».

N.Hacızadənin sözlərinə görə, Azərbaycanın MDB ölkələri ilə azad ticarət müqavilələri olduğu üçün sahibkarlar həmin ölkələrə məhsul ixrac etdikləri zaman rüsum xərclərindən azad edilirlər ki, bu da onlar üçün bir üstünlükdür: «Standartların tətbiqi sahibkarlarımızın öz məhsulları ilə 500 milyondan çox əhalini əhatə edən Avropa istehlak bazarına çıxışına imkan yaradıb. Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ixrac zamanı fitosanitar nəzarətin həyata keçirilməsinə, baytarlıq, qida təhlükəsizliyi sertifikatının verilməsinə imkan yaradıb ki, bu da məhsulun xarici ölkələrdə daha rahat satılması deməkdir».

N.Hacızadə qeyd edib ki, sənaye parklarının və məhəllələrinin yaradılması, yüksək texnologiyalar parklarının formalaşdırılması, rezidentlərin həmin müəssisələrə investisiyalar qoyaraq məhsul əldə etməsi və xarici bazarlara çıxarması Azərbaycanın xarici valyutada qazancının artması deməkdir. Bu isə iqtisadi inkişafda dayanıqlığı, makroiqtisadi sabitliyi möhkəmləndirən səbəblərdən biridir. Strateji yol xəritələrində göstərildiyi kimi, əsas hədəf ixracı artırmaqdır.

**Fəxriyyə İKRAMQIZI**

# Kiçik və orta biznesin maliyyə təminatı yaxşılaşdırılacaq

**Azərbaycanda özəl bölmənin inkişafında xüsusi rolu olan kiçik və orta sahibkarlığa (KOS) davamlı maliyyə dəstəyinin göstərilməsi üçün yerli, xarici və beynəlxalq təşkilatların maliyyə vəsaitlərinin cəlb edilməsi, məqsədli proqramların hazırlanması və icrası nəzərdə tutulur.**

Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin rəhbəri Orxan Məmmədov bildirib ki, KOS-a hərtərəfli və daha geniş maliyyə dəstəyi üçün həm dövlət, həm də özəl sektor tərəfindən qoyulan investisiyaların həcminin artırılmasına ehtiyac var. KOS sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı fərmanda müvafiq qurumlar, o cümlədən banklar qarşısında mühüm vəzifələr müəyyən edilib. Bunlardan biri KOS subyektlərinə münasibətdə maliyyə və vergi siyasətinin stimullaşdırıcı təsirinin gücləndirilməsidir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin eksperti Namiq Şalbuzovun sözlərinə görə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr KOS-un maliyyələşdirilməsi üçün zəmanət fondunun yaradılması, girovsuz maliyyələşmə mexanizmlərinin tətbiqi, risklərin sığortalanması və s. kimi xüsusi yanaşma tətbiq edirlər: «2018-ci ildən ölkəmizdə fəaliyyətə başlayan Kredit Zəmanət Fondu bu sahədə müsbət dəyişiklik yarada bilər. Fond tərəfindən sahibkarlıq sektorunun kredit əldə etməsi ilə bağlı əlverişli və sadə mexanizmlər qurulacaq, nəticədə bu sahədə sahibkarların əlçatanlıq imkanları xeyli artacaq. Fond sahibkarların manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə dövlət büdcəsinin vəsaiti hesabına subsidiya verəcək. Faiz subsidiyası sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı iş adamlarının müvəkkil banklardan manatla aldıqları kreditlər üzrə ödənilmiş faizlərin bir hissəsinə görə dövlət tərəfindən əvəzsiz veriləcək. Maliyyələşmədə digər mənbə - özəl kredit bürolarının yaradılması da yerli və xarici banklar tərəfindən KOS subyektləri üçün nəzərdə tutulan maliyyə xidmətlərinin və kredit resurslarının artırılmasına imkan verəcək, maliyyə əlçatanlığını təmin edəcək».

> Strateji yol xəritələrində Vergilər Nazirliyi qarşısında qoyulmuş mühüm vəzifələrdən biri də KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, optimallaşdırılması və risk dərəcəsi əsasında aparılmasıdır

Kiçik və orta biznesin maliyyə resurslarının asan və sərfəli şərtlərlə əldə edilməsi imkanlarının təmin olunmasında yeni yaradılmış agentliyin üzərinə mühüm vəzifələr düşür. Bu qurum biznes assosiasiyaları ilə birlikdə kiçik sahibkarlıq sektorunda problemlərin mütəmadi təhlilini aparacaq. Hazırda KOS subyektləri üzrə risk faktorunun yüksək olması onların maliyyə resurslarına çıxış imkanlarını məhdudlaşdırır.

KOS-un maliyyə kanallarına diversifikasiyası üçün zəruri amillərdən biri sahibkarların mal və avadanlıqlarının daşınar əmlak qismində girova qoyulmasıdır. Ötən il daşınar əmlakın yüklülüyünə dair qanunun qəbul olunması daşınar əmlakın bank kreditləri üçün girov mexanizmi kimi rəsmiləşdirilməsinə imkan verib.

KOS-un inkişafına dair strategiyaya əsasən, 2020-ci ilədək bu sahənin maliyyə vəsaitlərinə və satış bazarlarına çıxışının daha da asanlaşdırılması məqsədilə digər maliyyə kanallarının yaradılması nəzərdə tutulub. Qarşıdakı mərhələdə KOS subyektlərinin maliyyə mənbələrinə daha asan çıxışının təmin olunması, yerli və birbaşa xarici investisiyaların cəlb edilməsi üçün mexanizmlər təkmilləşdiriləcəkdir.

«Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə nəzərdə tutulmuş hədəflərə görə, 2020-ci ildə KOS-un ÜDM-də payı 15 faizə, məşğulluqda payı 20 faizə, qeyri-neft ixracındakı payı isə 10 faizə çatdırılmalıdır.

Strateji yol xəritələrində Vergilər Nazirliyi qarşısında qoyulmuş mühüm vəzifələrdən biri də KOS subyektlərinin fəaliyyətində yoxlama və lisenziyalaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, optimallaşdırılması və risk dərəcəsi əsasında aparılmasıdır. Belə bir addımın atılması bu kateqoriyadan olan vergi ödəyicilərinə münasibətdə diferensial yanaşmanı genişləndirəcək, KOS üçün fiskal və inzibatçılıq yükünün aşağı salınmasına şərait yaradacaq.

Vergilər Nazirliyi tərəfindən kiçik və orta sahibkarlıq sahələrində operativ vergi nəzarəti tədbirlərinin, səyyar və kameral vergi yoxlamalarının yalnız risk meyarları əsasında aparılması məqsədilə təkmil prinsip və mexanizmlər hazırlanıb. Nazirliyin kollegiyasının müvafiq qərarları ilə bəyannamələrin kameral vergi yoxlamalarının aparılması, səyyar vergi yoxlamaları, dövlət vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 50-ci maddəsinə uyğun olaraq vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi qaydalarına edilmiş zəruri dəyişikliklər təsdiq olunub.

**ELBRUS**

# Biznes və azad rəqabət üçün yeni imkanlar yaranır

## Rəqabət Məcəlləsinin qəbul olunması Azərbaycanın beynəlxalq miqyasda rəqabətqabiliyyətliliyini artıracaq

Azərbaycanda əlverişli biznes mühitinin yaradılmasında hökumətin rolunun daha da gücləndirilməsi məqsədilə Rəqabət Agentliyinin yaradılması nəzərdə tutulur. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, hazırda yeni qurumun yaradılması ilə bağlı işlər davam etdirilir. Məcəllənin layihəsi artıq hazırdır və Milli Məclisin komitə iclaslarında müzakirə olunub.

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədovun sözlərinə görə, hazırda sahibkarlıq sahəsində yoxlamaların dayandırılması, lisenziya və qeydiyyat sisteminin asanlaşdırılması, səmərəli vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində aparılan işlərin mühüm istiqamətlərindən biri azad rəqabət mühitinin yaradılmasıdır: «Dünya Bankının açıqladığı «Doing Business 2018» hesabatında əksər göstəricilər üzrə Azərbaycanın mövqeyi yaxşılaşıb. Respublikamız «biznesə başlama» göstəricisi üzrə ilk 10-luqda yer alıb. Bu faktor ölkədə rəqabətqabiliyyətliliyin yaxşılaşmasına təsir göstərən əsas amillərdən biridir. Bununla yanaşı, rəqabət qabiliyyətinin artırılması üçün biznes sektorunda bəzi islahatların aparılmasına ehtiyac var. Ölkə daxilində istehsalın stimullaşdırılması, həm yerli, həm də xarici biznesin daha yaxşı və rəqabət şəraitində işləməsi, eləcə də istehsalçıların maraqlarının qorunması baxımından hüquqi qanunvericilikdə dəyişikliklərin aparılması zəruridir. Bu baxımdan, Rəqabət Məcəlləsinin qəbul olunması vacibdir».

### Haqsız rəqabət və inhisarçılıq aradan qaldırılmalıdır

Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» və «İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında» sərəncamlarda ölkədə əlverişli biznes mühitinin və geniş rəqabət mühitinin təmin edilməsi, iqtisadiyyata investisiya axınının artırılması ilə bağlı vəzifələr müəyyən edilib. Dövlət başçısı iqtisadiyyata qoyulan investisiyanın həcminin artırılması məqsədilə bu sahədə islahatların genişləndirilməsini, xüsusilə özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznes-investisiya mühitinin daha da yaxşılaşdırılmasını, həmçinin investisiyaların qorunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsini əsas məsələlər kimi qarşıya məqsəd qoyub.

Sənədə əsasən, aidiyyəti dövlət orqanlarına vergi, gömrük, fiskal, maliyyə, biznes mühiti sahələrində xarici investorların hüquqlarının qorunması mexanizmləri, onlara dövlət zəmanəti verilməsi qaydası, mübahisələrin danışıqlar, məhkəmə, həmçinin arbitraj yolu ilə həlli üsulları (beynəlxalq arbitraj qaydalarının müddəaları nəzərə alınmaqla), investorlara vurulmuş zərərin, o cümlədən itirilmiş mənfəətin qaytarılması qaydası və digər məsələlərin həllinə dair tapşırıqlar verilib. Sənədin qəbul olunması sayəsində haqsız rəqabət, inhisarçılığın aradan qaldırılması ilə yanaşı, ölkəmizdə azad rəqabət mühiti təmin olunacaq ki, bu da iqtisadi inkişaf, keyfiyyətli istehsalın artımı, işsizliyin səviyyəsinin aşağı düşməsi, neft sektorundan asılılığın aradan qaldırılması, biznes mühitinin liberallaşması kimi bir çox problemlərin həllində mühüm rol oynaya bilər. Rəqabət Məcəlləsi regionların iqtisadi potensialından tam və səmərəli istifadə etmək, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması və balanslaşdırılmış iqtisadi inkişafın təmin edilməsi nöqteyi- nəzərindən də mühüm əhəmiyyət daşıyır. Məcəllənin qəbulu ölkədə qiymət artımı ilə bağlı problemlərin də həllinə gətirib çıxaracaq. Çünki qiymət artımlarının böyük əksəriyyəti süni xarakter daşıyır və inhisarçılıqla bağlıdır. Bu, həm də beynəlxalq maliyyə təşkilatlarının və Avropa İttifaqının əsas tövsiyələrinin yerinə yetirilməsi deməkdir.

### Səmərəli vergi sistemi təşviq edilir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən verilən xəbərə görə, Rəqabət Məcəlləsi layihəsi müvafiq nazirliklərin və mütəxəssislərin iştirakı ilə geniş müzakirə olunub, onların rəy və təklifləri nəzərə alınıb. Dünya Bankı və Avropa institutlarının ekspertləri də layihəyə müsbət rəy verib. Mərkəzin iqtisadçısı Faiq Qasımlı qeyd edib ki, yeni layihədə azad iqtisadi rəqabət əsasında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, ədalətli qiymətqoyma və geniş əmtəə və xidmət seçimi, qiymətlərin bazarda tələb və təklifin sərbəst qarşılıqlı əlaqəsi vasitəsilə formalaşması, dövlətin rəqabətli bazarlara məhdud müdaxiləsi, ictimai maraq kimi iqtisadi rəqabətin inkişafı və qorunması kimi əsas prinsiplər öz əksini tapıb. Bununla yanaşı, layihədə rəqabətin məhdudlaşdırılması, təmərküzləşmə, öhdəlik, sanksiyalar və s. məsələlərə də diqqət ayrılıb.

Sənəddə səmərəli vergi sisteminin təşviqi istiqamətində aparılmış araşdırmalara da geniş verilib. Dövlət xidmətlərinin çevikliyi və səmərəliliyinin artırılması məqsədilə «Dövlət xidmətlərinin təşkilində DATA analizi», «Açıq hökumət məlumatlarından istifadə edilməsi» və «Elektron hökumət həlləri» kimi araşdırmalar aparılıb. Bu zaman bir sıra ölkələrin təcrübəsi öyrənilib, eyni zamanda Dünya Bankının «Dövlət orqanlarının fəaliyyətinin ölçülməsində «Yaxşı idarəçilik» prinsipləri: şəffaflıq, səmərəlilik, cavabdehlik və effektivlik» prinsipləri təhlil olunub. Dövlət xidmətlərinin təşkilində «Açıq hökumət məlumatları»ndan istifadə, qabaqcıl texnologiyaların və elektron həllərin tətbiqi ilə bağlı araşdırmalar aparılıb, bu məqsədlə xarici ölkələrə səfərlər təşkil edilib.

### Avropa İttifaqı ilə əməkdaşlıq genişləndirilir

Aparılan islahatlar çərçivəsində rəqabət mühiti ilə bağlı qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması nəzərdə tutulur. Avropa İttifaqının TAIEX proqramı çərçivəsində rəqabət sahəsində qanunvericilik, institusional və iqtisadi islahatlara dəstək göstərilir. Bundan başqa, Avropa İttifaqı ilə Azərbaycan hökuməti arasında «Azərbaycan Respublikasında əsas qeyri-neft sənaye sahələrinin rəqabət qabiliyyətinin artırılması» layihəsi icra olunur. İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov bildirib ki, layihə qeyri-neft məhsullarının istehsalı və ixracında rəqabətliliyin artırılmasını nəzərdə tutur. Həmin məhsulların istehsalının və ixracının artmasında vergi və gömrük güzəştləri, qeyri-neft ixracının stimullaşdırılması, investisiyaların təşviqi ilə bağlı yürüdülən siyasət öz mühüm təsirini göstərir və layihə çərçivəsində stimullaşdırıcı mexanizmlər tətbiq ediləcək.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin əməkdaşı Jeroen Villems bildirib ki, layihənin məqsədi ölkəmizdə emal sənayesi sahələrinin rəqabət qabiliyyətinin artırılmasına və dövlət-özəl sektor tərəfdaşlığının gücləndirilməsinə dəstək göstərilməsidir. Layihədə emal sənayesinin bir sıra sahələrində peşəkar biznes assosiasiyalarının yaradılması, emal sənayesinin pilot sektorları ilə bağlı ilkin iqtisadi əsaslandırmanın həyata keçirilməsi də nəzərdə tutulur.

**E.CƏFƏRLİ**

# İnvestisiya mexanizmləri tənzimlənir

İnvestisiya təşviqi sənədinin verilməsində məqsəd investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə Tədbirlər Planının müvafiq bəndinə uyğun olaraq investisiyaların təşviqi ilə bağlı mexanizmin təkmilləşdirilməsidir. İnvestisiya təşviqi sənədi investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi, layihənin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri kimi meyarlara tam cavab verən investisiya layihələrini təqdim edən sahibkarlara verilir. Sənəd Azərbaycan Respublikasının Vergi Məcəlləsində və «Gömrük tarifi haqqında» Qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verir.

«Azərbaycan Respublikasında Strateji Yol Xəritəsinin icra vəziyyəti»nin 2017-ci il üzrə illik monitorinq və qiymətləndirmə hesabatına əsasən, ən uyğun investor profillərinin seçilməsi məqsədilə 51 özəl, ianə, pensiya və dövlət investisiya fondu haqqında təqdimat hazırlanıb, onların investisiya maraqları və Azərbaycanla əməkdaşlıq imkanları müəyyən edilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən hazırlanmış sənəddə qeyd edilib ki, investisiyaların təşviqi mexanizmləri sahəsində beynəlxalq təcrübə öyrənilib və «İnvest in Azerbaijan» mexanizmlərinin tənzimlənməsi barədə qaydanın layihəsi hazırlanıb. 50-yə yaxın xarici investorla əməkdaşlıqla bağlı danışıqlar aparılıb, onlara investisiya layihələri təqdim olunub. Bəzi müəssisələrin uzun müddət özəlləşdirmə siyahısında qalmasının səbəbləri araşdırılıb. Müəssisələr məsləhətçi şirkətlər tərəfindən bazar prinsiplərinə uyğun qiymətləndirilərək, investisiya müsabiqələri vasitəsilə özəlləşdirilməyə çıxarılıb və bəzi müəssisələrin özəlləşdirilməsi baş tutub.

İqtisadçı alim Fikrət Yusifovun sözlərinə görə, xarici investisiyaların cəlb edilməsi sahəsində Azərbaycan hökumətinin son bir neçə il ərzində apardığı işlər real nəticələrini verməkdədir: «İnvestisiyaların və ixracın təşviqi ilə bağlı mexanizmlərin işə salınması xarici investorların stimullaşdırılması istiqamətində atılan ən önəmli addımlardandır. Lakin iş bununla bitmir. Hər bir xarici investoru yatırım etdiyi ölkədə bütövlükdə investisiya mühitinin durumu - yəni onun nə qədər münbit olması maraqlandırır. Bu səbəbdən də biznes qarşısında dayanan bütün bürokratik əngəllər, neqativ hallar aradan qaldırılmalı və yatırım etmək istəyən xarici investorlara yeni güzəşt paketi təklif edilməlidir. Belə olduğu halda, ölkəyə indikindən dəfələrlə çox kapital axını baş verəcəkdir».

F.Yusifov qeyd edib ki, Azərbaycan özünün coğrafi yerləşməsi və təbii sərvətləri baxımından investorlar üçün kifayət qədər cəlbedici bir ölkədir. Kütləvi şəkildə kapital axınını təmin etmək üçün isə Çində və iqtisadi cəhətdən sürətlə inkişaf edən Şərqi Asiya ölkələrində olduğu kimi, Azərbaycanda da yüksək səviyyəli investisiya mühiti yaradılmalıdır.

**Fəxriyyə İKRAMQIZI**

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## BİR CÜMLƏ - BİR XƏBƏR

Sabah İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində «Bir Pəncərə» İxraca Dəstək Mərkəzi və «Qida Təhlükəsizliyi Agentliyi»nin birgə təşkilatçılığı ilə «İxrac əməliyyatlarında qida təhlükəsizliyinin əhəmiyyəti və rolu» mövzusunda seminar keçiriləcək.

İyulun 23-də Riqa şəhərində Azərbaycan və Latviyanın rəsmi şəxslərinin, parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvlərinin, sahibkarların iştirakı ilə «Azərbaycan Ticarət Evi» açılıb.

Çin hökuməti ilə imzalanmış texniki-iqtisadi əməkdaşlıq sazişi çərçivəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin istifadəsinə 112 adda yol texnikası və maşın-mexanizmlər verilib.

Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən müfəttişlərin bilik və bacarıqlarının artırılması istiqamətində nəzəri və praktiki təlimlərə başlanılıb.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## 2018-ci ilin avqust ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

- 2018-ci il üzrə hesablanmış torpaq vergisinin yarısını cari ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
- 2018-ci ilin 3-cü rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələri bu ilin avqust ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**2018-ci ilin iyul ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin avqustun ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin iyul ayının 20-dən gec olmayaraq notariuslar tərəfindən vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar 2018-ci ilin iyul ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan** vergi cari ilin **avqust ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən 3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).
- **Xüsusi notariusların 2018-ci ilin iyul ayı üzrə hesabladığı gəlir vergisi** cari ilin **avqust ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

**Qeyd: 2018-ci il oktyabrın 20-si qeyri-iş gününə təsadüf etdiyi üçün cari ilin 3-cü rübü üzrə bəyannamələrin təqdim edilməsinin son müddəti oktyabrın 20-nə keçirilib.**

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Vergi və digər büdcə daxilolmalarının internet vasitəsilə ödənilməsi

**Vergilər Nazirliyinin təqdim etdiyi bu xidmət vergi və rüsumların müasir ödəniş mexanizmlərindən istifadə olunaraq elektron formada ödənilməsini əhatə edir. Vergi və rüsumların elektron ödənişi Azərbaycan Respublikasının Vergilər Nazirliyinin «İnternet Vergi İdarəsi» portalının (https://www.e-taxes.gov.az) «Elektron ödəmə» bölməsində aparılır.**

Elektron xidmət tam avtomatlaşdırılmışdır və icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalı müddətindən asılıdır. Xidmətin həyata keçirilməsi nəticəsində vəsait kart sahibinin bank hesabından silinərək müvafiq xəzinədarlıq orqanında olan büdcə hesabına köçürülür. Aparılmış hər bir əməliyyat üzrə real vaxt rejimində elektron formada 30-60 saniyə ərzində Vergilər Nazirliyinə məlumat ötürülür.

Kart sahibindən aparılmış hər bir əməliyyata görə Mərkəzi Bankın Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi (KÖMİS) ilə əməliyyatların aparılmasına dair Kollektiv Sazişlə tənzimlənən tarif əsasında avtomatik rejimdə müvafiq bank idarəsinin xeyrinə xidmət haqqı tutulur. Bu elektron xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirilmə nömrəsi (VÖEN) almış bütün şəxslər istifadə edə bilərlər. Vergi və rüsumların elektron şəkildə ödənilməsi üçün sənəd tələb olunmur. Xidmətdən yararlanmaq üçün istifadəçi ödəniş kartına malik olmalıdır.

Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər dövlət orqanlarının informasiya ehtiyatında olduqda: Mərkəzi Bankın KÖMİS sistemində ödəyici haqqında məlumatın, ödəyicinin qeydiyyatdan keçdiyi region üzrə yerli xəzinədarlıq orqanının bank rekvizitlərinin və büdcə təsnifatının kodunun mərkəzi informasiya bazasında olması yoxlanılır və büdcə səviyyəsinin, büdcə təşkilatının kodu avtomatik rejimdə müəyyənləşdirilərək ödəniş tranzaksiyasına əlavə edilir. Ödəniş kartının məlumatları və kart hesabında kifayət qədər vəsaitin olmasına müvafiq prosessinq mərkəzi tərəfindən nəzarət edilir.

Vergi və rüsumların elektron ödənişi üzrə sorğu elektron imzadan və ya vergi ödəyicisinə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müqavilə əsasında verilmiş şifrə və paroldan istifadə edilməklə nazirliyin İnternet Vergi İdarəsi portalı üzərindən verilir. İstifadəçi tərəfindən aparılmış hər bir ödəniş üzrə əməliyyat aparıldıqdan sonra 30-60 saniyə ərzində KÖMİS vasitəsilə Vergilər Nazirliyinə məlumat ötürülür. Gün ərzində aparılmış ödənişlərin kliring prosesi növbəti ilk əməliyyat günü həyata keçirilir. Vergi və rüsumların elektron formada ödənilməsindən ödəniş kartının məlumatları yanlış olduqda, hesabda vəsait olmadıqda sistem tərəfindən bu barədə istifadəçi interfeysi vasitəsilə ödəyiciyə müvafiq xəbərdarlıq edilir. İmtinaya əsas olmadıqda ödəniş aparılır.

Elektron xidmətin göstərilməsi zamanı aparılan proseslərə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir. Bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195-1) fəaliyyət göstərir.

İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və məhkəməyə şikayət edə bilər. Elektron xidmətin göstərilməsindən və ya elektron xidmətin göstərilməsindən imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

# Onlayn satışın rəsmiləşdirilməsi

**İnternet üzərindən onlayn sınaq imtahan satışını həyata keçirmək üçün mövcud hesab nömrəsinə ödənişlər edilərsə, həmin hesab nömrəsinə VÖEN açdırmaq olarmı? Ümumilikdə, onlayn satışı tam rəsmiləşdirmək üçün hansı prosedurları keçmək lazımdır?**

Sorğuda qeyd olunan fəaliyyət sahibkarlıq fəaliyyəti hesab edilir və fiziki şəxs kimi sahibkarlıq fəaliyyətinə başlandığı günədək yaşayış (qeydiyyat) yeri üzrə vergi orqanına müraciət edərək vergi uçotuna alınmaq lazımdır. Vergi uçotuna alınma kağız daşıyıcısında «Fiziki şəxsin vergi uçotu haqqında ərizə» və ona əlavə olunmuş şəxsiyyət vəsiqəsinin surətinə əsasən həyata keçirilir. Kağız daşıyıcısında müraciət şəxsən və ya səlahiyyətli nümayəndə (notarial qaydada təsdiq edilmiş etibarnamə ilə) vasitəsilə vergi orqanına gəlməklə və ya poçt vasitəsilə edilir.

Vergi orqanına gəlmədən elektron qaydada da vergi uçotuna alınmaq mümkündür. Elektron qeydiyyat gücləndirilmiş elektron imza (o cümlədən «ASAN imza») əsasında İnternet Vergi İdarəsi portalı (www.e-taxes.gov.az) vasitəsilə aparılır.

Vergi öhdəlikləri vergi uçotuna alınarkən təqdim edilən ərizədə seçilmiş vergitutma sisteminə və yaranan vergitutma obyektlərinə uyğun olaraq müvafiq vergilərdən (sadələşdirilmiş vergi və ya gəlir vergisi, ƏDV, icarəyə götürülən əmlak olduqda icarəyə verənə ödənilən icarə haqqından ödəmə mənbəyində tutulan vergi, muzdlu işçi olduqda muzdlu işlə əlaqədar alınan gəlirdən ödəmə mənbəyində tutulan vergi və s.) ibarət olacaqdır.

Fəaliyyətin xüsusiyyətlərindən asılı olaraq edilməli olan hərəkətlər, habelə vergi öhdəlikləri barədə daha ətraflı məlumat almaq üçün «Sahibkarın vergi bələdçisi» bölməsində yerləşdirilən məlumatlarla tanış olmaq, əlavə suallar yarandıqda isə Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etmək olar.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin iyul və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin iyul və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Sabit vergi

Sabit vergi - fərdi şəkildə fəaliyyət göstərən fiziki şəxsin gəlirindən və dövriyyəsindən asılı olmayaraq ödədiyi dəyişilməz vergi məbləğidir. Vergi Məcəlləsinin 220.10-cu maddəsində nəzərdə tutulan fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər üçün sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği müəyyən edilmişdir.

Sabit verginin ödəyiciləri və ödənilməli məbləğ:

- Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət - 30 manat;
- Fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət - 30 manat;
- Çəkməçi, pinəçi - 5 manat;
- Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri - 10 manat;
- Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşbaz, gözətçi və digər analoji işlər - 10 manat;
- Nəqqaşlıq emalatxanalarının fəaliyyəti - 20 manat.

Bu fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər:

- qeydiyyatda olduqları yerdən asılı olmayaraq, həmin fəaliyyətin faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilən vergi məbləğini ödəyirlər;
- eyni dövr ərzində müxtəlif əmsallar tətbiq olunan ərazilərdə fəaliyyət göstərərlərsə, bu zaman ən yüksək əmsal tətbiq edilən ərazi üzrə müəyyən olunmuş sabit vergi məbləğini ödəyirlər;
- fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduqları halda, hər bir fəaliyyət növü üzrə ayrıca qəbz alırlar;
- nağd pul hesablaşmaları zamanı alıcıya qəbz və digər ciddi hesabat blankları təqdim etməlidirlər;
- fəaliyyətin göstərilib-göstərilməməsindən asılı olmayaraq, ödənilən sabit vergi geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarımil və il) vergiləri ilə əvəzləşdirilmir;
- bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə verilmir.

***Hesablanma qaydası***

Sabit verginin hesablanması üçün aylıq verginin məbləği ölkə üzrə aşağıdakı əmsallar tətbiq olunmaqla müəyyən edilir:

- Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - 2,0;
- Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində - 1,5;
- Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində - 1,0;
- digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) 0,5.

***Misal:*** Şənliklərdə aparıcılıqla məşğul olan şəxsin aylıq sabit vergisinin məbləği ayrı-ayrı şəhərlərdə aşağıdakı qaydada hesablanır:

| | |
|---|---|
| Bakı şəhərində: | 30 manat * 2 əmsal * 1 ay = 60 manat; |
| Gəncə şəhərində: | 30 manat * 1,5 əmsal * 1 ay = 45 manat; |
| Şəki şəhərində: | 30 manat * 1 əmsal * 1 ay = 30 manat; |
| Qazax şəhərində: | 30 manat * 0,5 əmsal * 1 ay = 15 manat. |

Fiziki şəxslər qeyd edilən fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda, «Sabit verginin ödənilməsi haqqında qəbz»i hər bir fəaliyyət növü üzrə ayrılıqda almalıdırlar.

***Maliyyə sanksiyası***

«Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə vergi ödəyicisinə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında;
- təqvim ili ərzində belə hallara iki və daha çox dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Sabit verginin ödəyiciləri göstərdikləri işə (xidmətə) görə nağd pul hesablaşmaları apararkən alıcılara ciddi hesabat blankı olan qəbz təqdim etməlidirlər. Ödəyicilər fəaliyyət növünə uyğun olaraq ciddi hesabat blanklarını (alıcıya verilən qəbz formasını) öz vəsaitləri hesabına bu fəaliyyəti həyata keçirən mətbəələrə verdikləri sifariş əsasında əldə edirlər.

Qanunvericiliklə müəyyən edilmiş ciddi hesabat blankı olan qəbzdən istifadə etmədən nağd pul hesablaşmalarının aparılması, alıcıya qəbzin verilməməsi və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə görə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat;
- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 800 manat;
- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 1200 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

***Qeydiyyata alınma***

Sabit verginin ödəyicisi olan fiziki şəxs, əgər vergi orqanında uçota alınmamışdırsa, ilk növbədə, qeydiyyatda olduğu ərazinin vergi orqanına və ya vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət etməli və VÖEN almalıdır.

Fiziki şəxs yuxarıda qeyd olunan fəaliyyətə başlayanadək vergi orqanından «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır. Həmin qəbz yazılı müraciət edildikdə iki iş günündən gec olmayaraq, elektron qaydada müraciət edildikdə isə real vaxt rejimində verilir.

Şəxs öz istəyinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» ala bilər.

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# CAR elektron bəyannamə verənləri mükafatlandırır

Cənubi Afrika Respublikasının (CAR) vergi administrasiyası - Gəlirlər Xidməti vergi bəyannamələrinin elektron qaydada təqdim olunmasını təşviq etmək üçün kağızla təqdim olunan bir sıra sənəd blanklarını ləğv etmişdir. 2018-ci il iyulun 1-dən Gəlirlər Xidmətinin filialları vergi ödəyicisi kimi (o cümlədən şirkət və trest kimi), həmçinin ƏDV tədarükçüsü və ya işəgötürən kimi qeydiyyata alınmaq üçün istifadə edilən kağız blank formalarının verilməsini dayandırmışlar.

«Bu əməliyyatlar, eləcə də gəlir vergisinin bəyannaməsi, ödənişlərin təqdim edilməsi elektron formada həyata keçirilə bilər»,- Gəlirlər Xidmətinin açıqlamasında bildirilmişdir. Bununla yanaşı, elekton fayllar üçün müəyyənləşdirilmiş tutum da iki meqabaytdan beş meqabayta qədər artırılmışdır. Bundan əlavə, bəyannamələrin adi qaydada verilməsi üçün son müddət 21 sentyabr müəyyənləşdirilsə də, sənədləri elektron fayllarla göndərmək üçün vergi ödəyicilərinə gələn ilin 31 yanvarına qədər müddət verilmişdir.

# Niderland aviasiya vergisi tətbiq etmək niyyətindədir

Hökumət 2021-ci ildən aviasiya daşımaları üçün yeni vergi tətbiq etməklə bağlı ictimaiyyətlə məsləhətləşmə kampaniyası keçirir. İyulun 5-dən başlayan iki aylıq məsləhətləşmələr zamanı hava nəqliyyatına vergi tətbiq etməyin bir neçə variantı, o cümlədən ya nəqliyyat vasitəsinə, ya da sərnişinlərə tətbiq ediləcək yerli vergilər nəzərdən keçirilir. Məsləhətləşmələr zamanı aviasiya vergilərinin Avropa İttifaqı səviyyəsində tətbiqi imkanları da nəzərdən keçirilir.

Hökumətin təkliflərinə uyğun olaraq, sərnişinlərdən tutulan milli vergi Avropa İttifaqının hüdudları daxilindəki uçuşlar üçün 3,8 avro, qitələrarası uçuşlar üçünsə 22 avro təşkil edəcək. Dövlət rəsmilərinin mövqeyinə görə, bu tədbir büdcə gəlirlərinin 200 milyon avroya yaxın artmasına səbəb olacaq. Açıqlamada bildirilmişdir ki, bu vergidən əldə olunan vəsaitlərdən ayrı-ayrı şəxslərin və müəssisələrin vergi yükünün azaldılması, eləcə də ətraf mühitin mühafizəsi təşəbbüslərinin maliyyələşdirilməsi üçün istifadə ediləcək.

Niderland hökuməti bu il ən məqbul variant əsasında qanun layihəsi tərtib etmək və yeni aviasiya qanununun tətbiqi üçün qanunvericilik bazasının yaradılmasına başlamaq niyyətindədir.

# Belçika hökuməti vergi islahatı ilə bağlı qanun layihəsini təsdiqləyib

Yeni qanun layihəsində korporativ verginin əhəmiyyətli dərəcədə azaldılması, eləcə də vergi bazasının genişləndirilməsi əsas yer tutur. Layihədə irəli sürülmüş təkliflərə əsasən, hazırda 33,99 faiz təşkil edən korporativ verginin dərəcəsi, həmrəylik töhfəsi də daxil olmaqla, ilkin mərhələdə 29 faizə, 2020-ci ildə isə 25 faizə qədər azaldılacaq. Bundan əlavə, həmrəylik töhfəsi tədricən aradan qaldırılacaq. Gələn il bu verginin dərəcəsi 3 faizdən 2 faizə endiriləcək, 2020-ci ildə isə ləğv ediləcək.

Qanun layihəsində kiçik müəssisələr üçün mənfəət vergisinin azaldılması da nəzərdə tutulmuşdur. Onlar ilk 100 min avro üçün 20 faizlik mənfəət vergisi ödəyəcəklər, halbuki hazırda qüvvədə olan qanunvericiliyə görə, bu göstərici 25 faiz təşkil edir. Bununla belə, kiçik şirkətlər mənfəət vergisinin azaldılması hüququ qazanmaq üçün hər il ən azı 45 min avro ödəməli olacaqlar.

Vergi islahatı Avropa İttifaqının vergidən yayınma ilə mübarizəyə dair direktivinin Belçikanın öz qanunvericiliyinə daxil edilməsi ilə bağlı öhdəliyi də ehtiva edir. Bununla yanaşı, islahatlar çərçivəsində ödənilən dividendlər 95 faizdən 100 faizə qaldırılacaq. Burada əsas məqsəd holdinq şirkətləri üçün Belçikanın cəlbedici yurisdiksiya mövqeyini qorumaqdır.

Hökumətin açıqlamasında bildirilmişdir ki, təkliflər tezliklə parlamentə təqdim olunacaq və gözlənildiyinə görə, bu ilin sonuna qədər qəbul ediləcək.

# Duma ƏDV ilə bağlı qanun layihəsini ikinci oxunuşda qəbul edib



Rusiya Federasiyasının Dövlət Dumasının ikinci oxunuşda qəbul etdiyi əlavə dəyər vergisinin (ƏDV) dərəcəsinin artırılması ilə bağlı qanun layihəsinə əsasən, 2019-cu ilin yanvarından ölkədə ƏDV-nin dərəcəsi 20 faizə qədər qaldırılacaq. Xatırladaq ki, hazırda Rusiyada bu göstərici 18 faiz təşkil edir. Gələn ildən ƏDV dərəcələri artırılsa da, güzəştli dərəcələrin hamısı saxlanılacaq. Avtomobil istehsalçılarına malları, işləri və xidmətləri alarkən (bunlar hətta büdcə subsidiyaları və ya büdcə investisiyaları hesabına əldə edilsə belə) ödədikləri ƏDV məbləğləri üçün çıxılma hüququ qüvvədə qalacaqdır.

Bundan əlavə, qanun layihəsinə əsasən, Krıma və Sevastopola aviadaşımalar üçün ƏDV-nin sıfır dərəcəsinin qüvvədə qalma müddəti 2025-ci ilə qədər uzadılacaq, Uzaq Şərqə uçuşlar üçün də eyni qayda müəyyənləşdiriləcək. Kaliningrad vilayətinə aviadaşımalar üçün də həmin dövrə qədər ƏDV-nin sıfır dərəcəsinin tətbiq olunması təklif edilmişdir. Hazırda daxili avia daşımalarından güzəştli 10 faizlik dərəcə ilə ƏDV tutulur.

Qanun layihəsində icbari pensiya sığortası haqqının 22 faizlik hazırkı dərəcəsi saxlanılmışdır. Bununla bərabər, müəyyən olunmuş həddən yuxarı əməkhaqqı üçün on faizlik «quyruq» adlandırılan əlavə sığorta dərəcəsinin də saxlanılması təklif edilmişdir. Bundan əlavə, qeyri-kommersiya və xeyriyyə təşkilatları üçün icbari pensiya təminatı üzrə azaldılmış tariflər (20 faiz), icbari tibbi sığorta və bədbəxt hadisələrdən sığorta (sıfır dərəcə) 2025-ci ilə qədər uzadılacaq.

Qeyd edək ki, hazırda Rusiyada sığorta haqlarının ümumi həcmi əməkhaqqı fondunun 30 faizini təşkil edir: 22 faiz - pensiya fondu haqqı; 5,1 faiz - icbari tibbi sığorta fondu; 2,9 faiz - sosial sığorta fondu. 2021-ci ildən ümumi dərəcənin 34 faizə yüksəldilməsi gözlənilirdi. Bu, pensiya fondu haqqının 26 faizə qaldırılması ilə əlaqədar baş verə bilərdi. Ancaq qanun layihəsində ümumi sığorta haqlarının həcmi 30 faiz səviyyəsində saxlanılmışdır.

# Portuqaliya duzlu məhsullara vergi tətbiq edir

İndiyə qədər daha çox tərkibində şəkər olan məhsulların, xüsusilə qazlı içkilərin vergiyə cəlb edilməsi daha çox müzakirə olunan məsələlərdən idi. Verginin sağlamlıq faktoru ilə əlaqələndirilməsinin maraqlı təzahürlərindən biri Portuqaliyada baş vermişdir. Hökumət tərəfindən yayılmış açıqlamada bildirilmişdir ki, duzlu ərzaq məhsulları üçün tətbiq edilən vergi əhalinin sağlamlığı ilə bağlı xərclərin ödənilməsi məqsədini daşıyır.

Vergi qanununda edilmiş yeniliyə əsasən, 100 qram məhsulun tərkibində 1 qram və ya daha artıq duz olduqda həmin məhsulun hər kiloqramı üçün 0,8 avro məbləğində vergi tutulacaq.

Yeni vergi ilə bağlı təklif Parlament Assambleyasına 2018-ci il üzrə büdcə çərçivəsində təqdim edilmişdir.

# Yetkinlik yaşına çatmamış uşaqlar bəyannamə verəcək

Qazaxıstan Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədri Madi Takiyev bildirmişdir ki, təxminən 13 milyon vətəndaş 2020-ci ilə qədər əmlakın bəyan edilməsində iştirak edəcək. Qeyd olunmuşdur ki, bu sistemin tətbiqində məqsəd fiziki şəxlərin əmlakına daha effektiv nəzarət etmək, eləcə də «kölgə iqtisadiyyatı» və korrupsiya halları ilə mübarizə aparmaqdır: «Burada şəxslərin bir neçə kateqoriyası vardır: birincisi - Qazaxıstan Respublikasının yetkinlik yaşına çatmış vətəndaşlarıdır; ikincisi - yetkinlik yaşına çatmamış, ancaq adında əmlak və ya əmlakın bir hissəsi olan şəxslər; üçüncüsü - Qazaxıstanda əmlakı olan əcnəbilərdir».

Yetkinlik yaşına çatmamış şəxslərin bəyannamə verməsi məsələsinə aydınlıq gətirən Takiyev qeyd etmişdir ki, burada söhbət yaşayış sahəsinə sahibliyin nisbətindən - hər hansı evdə qeydiyyatda olan və ya adına hər hansı şirkət tərəfindən əmlakın hissəsi yazılmış uşaqlardan gedir. Onların adından bəyannaməni ya valideynləri, ya da qəyyumları verəcək.

Bunlarla yanaşı, Qazaxıstan vətəndaşları evdə saxladıqları pul haqqında da bəyannamə verməli olacaqlar. 2020-ci ilə qədər bu məzmunda 12 milyon 990 min şəxsin bəyannamə verəcəyi gözlənilir. Burada şəhər əhalisinin sayı 7,4 milyon, kənd əhalisinin sayı isə 5,5 milyon təşkil edir.

# Özüməşğul əhali 2019-cu ildən tibbi sığorta haqqı ödəyəcək

Rusiya Federasiyasında 2019-cu ildən sonra özüməşğul insanlar üçün tətbiq olunacaq vahid ödənişə vergi və sığorta haqları da daxildir. Köçürmə Rusiya Federasiyasının İcbari Tibbi Sığorta Fonduna ediləcək.

Maliyyə Nazirliyi bu addımı atarkən ilin 12 ayı məzuniyyətsiz işləyərək 800 min rubldan artıq (21.500 manat) qazanc əldə edən vətəndaşları nəzərdə tutmuşdur. Yığım fiziki şəxslərə xidmət üçün 3 faiz, hüquqi şəxslərə xidmət üçünsə 6 faiz təşkil edəcək. Gözlənilir ki, muzdlu işçisi olmayan fiziki şəxslərin peşəkar fəaliyyətdən əldə etdikləri gəlirdən vergi mobil proqram təminatı vasitəsilə avtomatlaşdırılmış qaydada tutulacaq.

Rusiyada özüməşğul insanların xidmətlərinin istehlakçıları üçün loyallıq üzrə dövlət proqramı hazırlanır. Həmin proqramda bir neçə variant təklif edilir: məsələn, vergi çıxılması və ya öhdəliklərin yerinə yetirilməsi üçün reallaşdırılması mümkün olacaq ballar. Yeni qaydalar qüvvəyə minəndən sonra vətəndaşlar xidmətin göstərilməsi ilə bağlı özüməşğul insanlardan qəbz tələb etməli olacaqlar.

Vahid ödənişin tətbiqi «2019-cu il və 2020-2021-ci planlaşdırma dövrü üçün büdcə, vergi və gömrük-tarif siyasətinin əsas istiqamətləri» layihəsində qeydə alınmış, köçürmənin qaydası vergi xidməti ilə razılaşdırılmışdır. Vergi rejiminin tətbiqi ilə bağlı pilot layihə ayrı-ayrı regionlarda beş il müddətində həyata keçiriləcək.

## krossvord



**Yuxarıdan aşağı:** 1. Bir sıra ölkələrin hərbi dəniz qüvvələrində hərbçilərə verilən rütbə; 2. İlkağızlılar yarımbölməsinə aid, yumşaq bədənli onurğasız dəniz heyvanı tipi; 3.Gədəbəy rayonunda kənd; 4.Nigeriyanın cənub-qərbində şəhər; 5.Görkəmli Azərbaycan şairinin təxəllüsü; 6. İlin aylarından biri; 9.Qafqazın ən böyük mədəniyyət, elm və ticarət mərkəzi; 13.Arxitektura elementi; 15.Rəsmi orqanların, yaxud idarələrin siyahısı, reyestri; 16.Gözü işıqdan qorumaq üçün lampaya keçirilən örtük, qalpaq;17.Mərd, alicənab; 18.Qədim Romada müxtəlif vəzifəli şəxslərin adı; 20.Tanınmış Azərbaycan bəstəkarı, əməkdar incəsənət xadimi, xalq artisti, «Arazım» və «Gecələr» mahnılarının müəllifi; 21.Şaxtanın bir hissəsi, dağlarda qrunt sularının yığıldığı boşluqlar.

**Soldan sağa:** 1.Xatirələrdən bəhs edən oçerkləri yazan şəxs; 5.Qida məhsulu; 7.Səfəvilər və Osmanlılar arasında döyüşün baş verdiyi düzənlik ərazinin adı; 8.B.e.ə. IV əsrdən başlayaraq Qədim Yunanıstanda, Romada və 18-ci əsrədək Qərbi Avropada hesablama üçün işlədilmiş lövhə; 10.Efiopiyada vulkan; 11.Oksigensiz yaşaya bilən mikroorqanizmlər; 12.Rusiya Federasiyasının Rostov vilayətində şəhər; 14.Bakıda rus dilində nəşr olunan həftəlik ictimai-siyasi qəzet; 19.XVII-XVIII əsrlərdə Avropa mədəniyyətində renessans və klassizm arasında mövcud olmuş cərəyan; 21.Xorvatiyada şəhər; 22.Portuqaliyada yaşayış məntəqəsi; 23.Səfəvilər dövlətinin ikinci şahı - Şah İsmayılın oğlu; 24.İranda şəhər; 25.Qüzey Azərbaycan ilə Güney Azərbaycanı birləşdirən körpü.



Gözü işıqdan qorumaq üçün lampaya (çılçıraq, stolüstü lampa və s.) keçirilən örtük, qalpaq

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Rafael (İsgəndərov); 2.Niaqara; 3.Stiks; 4.Avqust; 5.Aygün; 6.Avrora; 9.Ələt; 13.«Qaya»; 15.Ametist; 16.Müslüm (Maqomayev); 17.Bəhmən (Əliyev); 18.Kolmar; 20.Varan; 21.Klişe. **Soldan sağa:** 1.Renessans; 5.Ağa; 7.Flaminqo; 8.Əgər; 10.Evans; 11.Silindr; 12.Haaqa; 14.Atlas; 19.Ülviyyə (Könül); 21.Kredo; 22.Lari; 23.Empirizm; 24.Min; 25.Vinçester.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# «Bakı-2019»un rəsmi loqosu təqdim olundu

Gələn il Bakıda keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalına rəsmi gerisayım başlayıb. Bununla əlaqədar «Bakı-2019» Avropa Gənclər Olimpiya Festivalının (AGOF) Təşkilat Komitəsi tərəfindən turnirin rəsmi loqosu təqdim edilib.

«Leo Burnett» brend agentliyinin dizaynerlərindən ibarət yerli heyətin tərtib etdiyi loqo dostluq, ədalətli oyun və tolerantlıq ruhunu gücləndirən müasir, dinamik və çevik brendi əks etdirir. Brendin əsas məqsədi beynəlxalq idman yarışlarına ev sahibliyi edən ölkənin, şəhərin qədim mədəniyyətini, tarixini əks etdirmək, eyni zamanda gələn il baş tutacaq idman yarışının bundan əvvəlkilərlə müqayisədə fərqini və milyonlarla insanı bir araya gətirən idman tədbirində «Bax və hiss et!» şüarını nümayiş etdirməkdir. Bakının irs və mədəniyyətini (od və qədim Azərbaycan naxışı olan butanı), birlik və dostluq konsepsiyalarını özündə ehtiva edən loqo, eyni zamanda, Azərbaycan paytaxtının möhtəşəm müasir memarlıq nümunələrini (Alov qüllələri və Heydər Əliyev Mərkəzini) təsvir edir. Parlaq rəngləri canlandıran bu loqo yarışlara qatılacaq hər bir iştirakçının müsbət enerjisi və paytaxtımızın çoxşaxəli gözəlliyini təsvir etdirən əhatəli çalarlar palitrasından ibarətdir.

«Bakı-2019» Təşkilat Komitəsinin sədr müavini Azad Rəhimovun sözlərinə görə, bu loqo Azərbaycan mədəniyyətinin təzahürü olmaqla yanaşı, Avropa Olimpiya Hərəkatının əsl ruhunu və bütün dünyanı ilhamlandıran, milyonlarla insanı bir araya gətirməyi bacaran idman mübarizəsini əks etdirir. Böyük idman ənənəsi olan, bir çox mötəbər yarışlara yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan Avropanın gənc atletlərini Bakıda salamlamağı səbrsizliklə gözləyir.

# Avropa kuboku yarışlarında ikinci yer

Çexiyanın paytaxtı Praqa şəhərində gənc cüdoçuların Avropa kuboku yarışlarına yekun vurulub. Mötəbər turnirin ikinci günündə millimiz aktivinə daha bir medal yazdırıb. Turnirdə 81 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Murad Fətiyev yalnız final qarşılaşmasında üstünlüyü əldən verərək Avropa kubokunun gümüş medalına sahib olub. Bununla da cüdoçularımız yarışı 2 qızıl, 3 gümüş və 4 bürünc medalla başa vuraraq ümumi medal sayında ikinci olublar. Qeyd edək ki, 39 ölkədən 430 (280 oğlan, 150 qız) cüdoçunun qüvvəsini sınadığı qitə turnirində Azərbaycan millisi 17 (12 oğlan, 5 qız) cüdoçu ilə təmsil olunub.

# Məsud Özil Almaniya millisini tərk etdi



Türkiyə əsilli alman futbolçu bu barədə sosial şəbəkədəki hesabında açıqlama yayıb: «Alman Futbol Federasiyası və digər bir çox insanın mənə qarşı olan davranışı səbəbindən Almaniya milli komandasının formasını geyinmək istəmirəm. Bu qərarı vermək mənim üçün çox çətin oldu. Çünki komanda yoldaşlarım üçün, texniki heyət üçün, alman xalqı üçün hər zaman hər şeyi etmişəm. Lakin federasiyadakı səlahiyyətli şəxslərin mənə qarşı hərəkətləri, mənim türk kökənimə hörmət etməmələri və məni bir siyasi təbliğat alətinə çevirmələrindən bezdim».

# Avropa çempionatında əla start

## İki atletimiz 3 qızıl, 3 gümüş medalla birinci oldular



İtaliyanın Milan şəhərində 15 və 17 yaşadək yeniyetmə oğlanlar və qızlar arasında ağır atletika üzrə Avropa birinciliyi davam edir. Qırxa yaxın ölkədən 388 atletin (169 qız və 219 oğlan) iştirak etdiyi turnir Argentinanın paytaxtı Buenos-Ayresdə baş tutacaq Yeniyetmələrin III Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.

İlk yarış günündə yaşı 15-ə qədər olan qızlarımızdan Günel Muxtarlı 6-cı, Selcan Qarayeva isə 7-ci yeri tutub. Oğlanlarda nəticələr fərqli olub. Elvin Şükürzadə yaşı 15-dək oğlanlar arasında 50 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdən qaldırma hərəkətində hər üç yanaşmanı uğurla yerinə yetirib və 78 kq nəticə ilə bu hərəkətdə Avropa birinciliyinin kiçik gümüş medalçısı adını qazanıb. Təkanla qaldırma hərəkətində Elvin 95 kq çəkinin öhdəsindən gələ bilib. O, bu hərəkətdə 6-cı olub. Toplam 173 kq (78+95) nəticə ilə E.Şükürzadə Avropa birinciliyinin yekun sıralamasında 4-cü yeri tutub. Onu medaldan cəmi 1 kq ayırıb.

Son olaraq yaşı 17-dək oğlanlar arasında 50 kq çəki dərəcəsində Ömər Cavadov körpücük üstünə çıxıb. Möhtəşəm çıxış nümayiş etdirən atletimiz birdən qaldırma hərəkətində hər üç yanaşmanı uğurla yerinə yetirib və 88 kq nəticə göstərərək bütün rəqiblərini üstələyib və bu hərəkətdə qızıl medal qazanıb. O, uğurunu təkanla qaldırma hərəkətində də davam etdirib. Atletimiz bu dəfə 102 kiloqramı ram edərək, bu hərəkətdə Avropa ikincisi olub. Bunula da toplam 190 kq (88+102) nəticə göstərən Ömər Cavadov yekun sıralamada Avropa birinciliyinin qalibi adını qazanıb.

Yarışın ikinci günündə Azərbaycan yığma komandasının üzvlərindən daha ikisi körpücük üzərinə çıxıb. Fuad Həsənov və Elşən Məmmədov 15 yaşadək oğlanların mübarizəsində 56 kiloqram çəki dərəcəsində qüvvələrini sınayıblar. Fuad Həsənov birdən qaldırma hərəkətində 92 kiloqramlıq nəticə ilə ikinci yeri tutub. Atletimiz təkanla qaldırmada 110 kiloqramın öhdəsindən gələrək bu hərəkətdə də gümüş medala sahib olub. O, toplam 202 kiloqram (92+110) nəticə ilə Avropa birinciliyinin yekun sıralamasında da gümüş medal qazanıb.

Ötən il Kosovonun paytaxtı Priştinada keçirilən Avropa birinciliyində bürünc medal qazanan Elşən Məmmədov isə bu dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Atletimiz birdən qaldırmada 98 kiloqram nəticə göstərib və bu hərəkətdə bütün rəqiblərini üstələyib. Elşən təkanla qaldırma hərəkətində də qızıl medal qazanıb. O, bu hərəkətdə 114 kiloqram nəticə ilə Avropanın ən yaxşısı adına layiq görülüb. E.Məmmədov toplam 212 kiloqram (98+114) nəticə ilə Avropa birinciliyinin yekun sıralamasında da fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Beləliklə, bu çəki dərəcəsində iki atletimiz 3 qızıl və 3 gümüş medal qazanaraq çempionatda birinci yeri tutub. Yarışlara iyulun 29-da yekun vurulacaq.

## mozaika

layihə

# Üzən günəş panelləri sistemi



Azərbaycanda üzən günəş panelləri sistemi ilə bağlı pilot layihə həyata keçiriləcək. Energetika Nazirliyindən bildirilib ki, «Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi»nin tam şaxələndirilmiş və ekoloji baxımdan təmiz elektrik enerjisi istehsalının təmin edilməsi hədəfinə uyğun olaraq nazirlik Asiya İnkişaf Bankının dəstəyi ilə üzən günəş panelləri sistemi ilə bağlı pilot layihə həyata keçirəcək. Nazirlər Kabineti «Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi» adlı pilot layihənin icrasına icazə verib. Asiya İnkişaf Bankı tərəfindən məsləhətçi şirkətin seçilməsi üçün tender prosesi yekunlaşdıqdan sonra layihə üzrə işlərə başlanması planlaşdırılır.

Layihə çərçivəsində Böyükşor gölündə hər biri 100 kilovata qədər gücə malik olacaq 3 ədəd fotovoltaik sistemin quraşdırılması, həmçinin günəş qurğularının quraşdırılmasında özəl sektorun iştirakının təşviqi məqsədilə biznes modellərin formalaşdırılması, bu sahədə milli potensialın gücləndirilməsi, eləcə də müasir norma və prinsiplərin tətbiq edilməsi nəzərdə tutulur.

Energetika Nazirliyi alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi məqsədilə mövcud potensialın qiymətləndirilməsi, bu istiqamətdə həyata keçiriləcək layihələrin müəyyənləşdirilməsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq əsasında qabaqcıl təcrübənin öyrənilməsi ilə bağlı kompleks tədbirlər görür.

mədəniyyət

# Kiyevin mərkəzində Müslüm Maqomayev parkı



Ukraynanın paytaxtı Kiyev şəhərinin mərkəzində dünya şöhrətli müğənni və bəstəkar, SSRİ Xalq artisti Müslüm Maqomayev adına parkın təntənəli açılış mərasimi olub. Mərasimdə Azərbaycan və Ukraynanın mədəniyyət nazirləri Əbülfəs Qarayev və Yevgeni Nişuk, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Kiyev Şəhər Dövlət Administrasiyasının rəhbərinin müavini Aleksandr Spasibko, xarici ölkələrin Ukraynadakı səfirləri, Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ Xalq artisti Fərhad Bədəlbəyli, Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, Azərbaycan Dövlət Filarmoniyasının direktoru Murad Adıgözəlzadə və KİV nümayəndələri iştirak ediblər.

Kiyevin mərkəzində belə bir parkın açılmasının tarixi hadisə olduğunu qeyd edən nazir Əbülfəs Qarayev bildirib ki, bu park kiyevlilər və şəhərin qonaqları üçün gözəl istirahət məskəni olacaq. M.Maqomayev Azərbaycanın dünya şöhrətli musiqiçisi, ecazkar vokal ifaçılığı ilə milyonların qəlbini fəth etdiyini vurğulayan Ukraynanın mədəniyyət naziri çıxışında deyib ki, o, bir çox xalqların sarsılmaz mədəni əlaqələrinin təcəssümüdür, dünya mədəniyyətinə məxsus ifaçıdır. Heykəlin müəllifi, tanınmış heykəltəraş, Ukraynanın Xalq rəssamı Seyfəddin Qurbanov Müslüm Maqomayev kimi dahi şəxsiyyətin heykəlinin müəllifi olduğu üçün özünü xoşbəxt saydığını bildirib.

Çıxışlardan sonra parkda məşhur müğənninin heykəlinin üzərindən örtük götürülüb. Tədbir Azərbaycan, Özbəkistan, Ukrayna və digər ölkələrin incəsənət xadimlərinin çıxışları ilə davam etdirilib. Daha sonra Kiyevin Milli Musiqi Akademiyasında Müslüm Maqomayevin xatirəsinə həsr olunmuş «Sən mənim nəğməmsən!» adlı konsert proqramı təşkil olunub.

cəmiyyət

# İtaliya Prezidentinin qızı «Atəşgah məbədi»ndə...

İtaliya Respublikasının dövlət başçısı Sercio Mattarella Azərbaycanda rəsmi səfərdə olarkən onun qızı Laura Mattarella «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olub. Qonağa bu qədim abidənin tarixi haqqında ətraflı məlumat verilərək bildirilib ki, Bakının mərkəzinin 30 kilometrliyində, Suraxanı rayonu ərazisində yerləşən «Atəşgah məbədi», demək olar, bütün dünyada tanınır. Qədim dövrlərdə bu ərazidə atəşpərəstlərin məbədi yerləşib. Əbədi alova mistik əhəmiyyət verən atəşpərəstlər müqəddəs oda tapınmaq üçün buraya gəliblər.

Diqqətə çatdırılıb ki, XV-XVII əsrlərdə ticarət karvanları ilə Abşerona gələn atəşpərəst hindular Suraxanını ziyarət ediblər. Hindli tacirlər qədim məbədin yerində yeni tikililər inşa ediblər. «Atəşgah məbədi»nin ən erkən tikilisi 1713-cü ilə aiddir. XVIII əsrdə məbədin ətrafında ibadətgah, hücrələr, karvansara inşa edilib.

internet

# Transatlantik internet kabel xətti çəkiləcək



«Google» şirkəti 2020-ci ilədək Transatlantik internet kabel xəttini istifadəyə verməyi planlaşdırır. Dünyanın internet nəhəngi bununla «Microsoft» və «Amazon» şirkətləri ilə mübarizədə rəqabətqabiliyyətliliyi artırmaq niyyətindədir.

Məlumata görə, layihə Qırmızı Xaç Cəmiyyətinin təsisçisi və ilk Nobel mükafatı laureatı Anri Dürananın şərəfinə «Dunant» adlandırılıb. Adətən, belə layihələr bir neçə şirkət tərəfindən dəstəklənir, lakin «Dunant» telekommunikasiya sahəsini təmsil etməyən və bir şirkətə məxsus olan ilk kabel xətti olacaq.

«Google» şirkətinin top-meneceri Ceyn Stouell bildirib ki, kabel Atlantik okeanı ilə şəbəkənin buraxılış qabiliyyətini artıraraq internetin ən çox yüklənən istiqamətini tamamlayacaq və «Google Cloud» virtual platformasını genişləndirməyə kömək edəcək.

yaddaş

# Tolstoylar nəslinin qurultayı



İyulun 18-dən 22-dək keçirilən bu qeyri-adi tədbir zamanı böyük rus yazıçısı Lev Tolstoyun ata-baba mülkü dünyanın müxtəlif ölkələrindən gələn yüzlərlə qonağın görüş yerinə çevrilmişdir. Qurultaya toplaşan ruslar, fransızlar, almanlar, çexlər, belçikalılar, danimarkalılar və uruqvaylılar ya birbaşa «Hərb və sülh» romanının müəllifinin nəslinin, ya da Tolstoyların qollu-budaqlı nəsil şəcərəsinin digər şaxələrinin nümayəndələri olub.

Qurultay iştirakçıları üçün zəngin mədəni proqram tərtib edilib. Bu böyük ailənin nümayəndələrinin görüşü soy-kök ənənələrinin əhəmiyyəti və qohumluq əlaqələrinin qorunub saxlanılmasının örnəyidir. Çoxsaylı qonaqlar forum çərçivəsində Tolstoylar sülaləsinin tarixi və bu ailənin ən tanınmış nümayəndəsi Lev Tolstoyun yaradıcılığı ilə tanış olublar. Qonaqlar, həmçinin, ustad dərslərində, mühazirələrdə, «Turgenevo» malikanəsində təşkil olunmuş festivalda iştirak ediblər, Yasnaya Polyanaya ekskursiya edərək, böyük əcdadın xatirəsini anıblar, məzarı üstünə gül-çiçək dəstələri düzüblər.

**Müdriklər deyib ki...**



*«Ən düzgün tərbiyə üsulu yaxşı nümunə göstərməkdir».*

*Lev Tolstoy (1828-1910)*